Bizim Ailə

№28 Noyabr-Dekabr-2012- Qadın - Ailə - Jurnalı - Qiyməti - 2AZN

BİZİM AİLƏ
Qadın- Ailə jurnalı
Dövlət Reyester№ 20929

Təsisçi:
İpəkyolu MMC

Redaktor:
Gülnarə Seyidova

Məsləhətçi
Samirə Mahmudova

Redaktor müavini:
Mətanət Kərimova

Redaksiya heyəti:
Dr.Mehri Məmmədova
Dr.Nailə Süleymanova
Dr.Sevinc Aslanova
Dr.Mehriban Qasımova
Dr.Samirə Həsənova
Zeynəb Nuri
Meryem Demir
Vüsalə Quliyeva
Rəna Mirzəliyeva
Aygün Məmmədzadə
Mətanət Kərimova

Abunə və reklam işləri:
Aynur Məmmədova

Dizayn:
Aygün Məmmədzadə

Qapaq dizayn:
Aidə Sahibli

Ünvan: Bakı şəhəri, Cəfərov Qardaşları küçəsi. 16
Tel: (+994 050) 369 65 23
(+994 12) 502 07 55

Web:
www. bizimaile. az
e-mail:
bizimailedergisi@yahoo.com

Əziz oxucu!

Havalar hələ müəyyən qədər isti keçsə də artıq payız mövsümünü yaşayırıq. Bildiyiniz kimi payız fəsli ağacların yarpaqlarını tökdüyü, təbiətin əlvan rəngini müəyyən qədər yeknəsəkliyə dəyişdiyi bir fəsildir. Canlı ağacların xəzan olub tökülən yarpaqları bizə ömürdən gedən günləri, saatları və dəqiqələri xatırladır. Hər gün həyat limanından bir az daha uzaqlaşaraq durmadan ölümə yaxınlaşırıq. Hər bir canlının dadacağı ölüm gerçəyi əslində ətrafımızda baş verən hər bir dəyişikliklə öz varlığından xəbər verir. Sadəcə görmək və dərk etmək lazımdır. Eynilə Sədi Şirazinin dediyi kimi: "Arif olan könüllər üçün ağaclardakı bircə yarpaq da gerçəklərdən xəbər bir divandır. Qafil olanlar üçünsə bütün ağaclar tək bir yarpaq belə deyil".

Yaranmış hər canlının öləcəyindən xəbər verən bir mövsümdə ölümün heç də son olmadığını, əslində yeni bir həyata keçiş olacağını xəbər verən yazılarla görüşünüzə gəldik. Eynilə qurumuş ağacların bahar fəslində yenidən canlanacağı kimi insan da ölümlə əslində yeni həyata doğulur. Yeni və ölümsüz dünya onu gözləyir. Elə isə vəzifəmiz sadəcə bu ölümsüz dünyaya hazırlıqlı olmaq və o dünyamızı abad etməyə çalışmaq olmalıdır.

Bu sayımızda Gülnarə Seyidovanın "Aləmdə İnsan" başlıqlı məqaləsində kainatdakı yerimizin nə olduğunu və Rəbbimizin bizə olan lütfünün böyüklüyünü oxuyacaqsınız. Samirə Mahmudovanın "Son Dayanacaq" yazısında bir gün dünyada son dayanacağa çatıb ömür adlı qatardan birdəfəlik necə düşəcəyimizi oxuyacaqsınız. "Sonsuz Həyata Yolçuluq", "Ölüm Haqdır", "Bir Günün Hesabatı", "Axirət" başlıqlı məqalələrin hər biri ana mövzumuzla yaxından əlaqəli və sevərək oxuyacağınız yazılardır. Möhtərəm Osman Nuri Topbaşın qələmindən çıxan "Həyat və Ölüm" yazısı isə mövzu ilə bağlı yazılmış yazılar içərisində xüsusilə seçilir.

Əziz oxucu!

Son olaraq qeyd edək ki, jurnalımızla bağlı sizdən gələn rəy və təkliflər, o cümlədən gördüyümüz işlərə münasibətləriniz bizi çıxdığımız yolda bir az da həvəsləndirir. Sizin dəstəyiniz və alqışlarınızla yeni uğurlara imza atmaqdan qürur hissi keçiririk. Qapımız hər zaman üzünüzə açıqdır. Hər zaman öz təkliflərinizi, gözəl yazılarınızı jurnalımızda qeyd olunmuş ünvanlara göndərə bilərsiniz. Sizi jurnalımızla baş-başa qoyur və yeni sayımızda görüşənədək deyirik.

İÇİNDƏKİLƏR

ALƏMDƏ İNSAN
Gülnarə SEYİDOVA.....3

SON DAYANACAQ
Samirə MAHMUDOVA.....6

SONSUZ HƏYATA YOLÇULUQ
Əlif GÜLDAR.....8

ÖLÜM HAQDIR
Aygün MƏMMƏDZADƏ.....10

BİR GÜNÜN HESABATI
Fatimə ZƏHRA.....12

ŞÜBHƏ
Aysel ƏMİRASLANLI.....15

AXİRƏT
Sevinc ƏZİMLİ.....16

SOVET HAKİMİYYƏTİ İLLƏRİNDƏ AZƏRBAYCANDA ATEİZM TƏBLİĞATI 2
Qəmər CAVADLI..... 18

İNSAN HƏYATININ SON MƏRHƏLƏSİ- "AXİRƏT"
Mətanət KƏRİMOVA.....24

HƏYAT və ÖLÜM
Osman Nuri TOPBAŞ.....22

HƏR İNSANIN KEÇƏCƏYİ QAPI
Mədinə UÇKUN.....26

SON NƏFƏSDƏN İBRƏTLİ BİR MƏNZƏRƏ
Əfsanə BƏKİROVA.....27

İSLAM BÜTÜN ELMLƏRİN MƏNBƏYİDİR
Pərvanə ƏFƏNDİYEVA.....28

HƏLƏLİK AZƏRBAYCAN
Xədicə ŞAHİN.....30

İKİ DÜNYA ARASINDA
Məhsəti ƏSGƏRLİ.....32

FƏDAKARLIQ
Safiyə ƏLİYEVA.....34

GÜNƏŞ ULDUZ KİMİ.....36

ÖYRƏNƏK.....37

HƏKİM MƏSLƏHƏTİ
Vüqarə MƏMMƏDOVA.....38

QOZ
Kəmalə HÜSEYNOVA..... 40

LƏZZƏT DÜNYASI.....42

XƏBƏR.....44

3
ALƏMDƏ İNSAN

6
SON DAYANACAQ

22
HƏYAT və ÖLÜM

27
FƏDAKARLIQ

Gülnarə SEYİDOVA

ALƏMDƏ İNSAN

Uca Allah əl-Hayy adıyla varlıq alə mində təcəlli etmiş, canlı varlıqları yaratmışdır. Yer üzündəki canlı varlıqlar şəxsən canlı və diri olmaları ilə uca Yaradıcının varlığını; Onun canlı və diri xüsusiyyətlərə sahib oldu ğunu sübut edir.

Cənabı Allahdan başqa, yer üzü ilə səmadakı maddi, mənəvi bütün əşya və varlıqlar, Kainat, bütün yaradılmışlar aləmi meydana gətirir. Kainatdakı bütün varlıqların hər bir növü də ayrı bir aləm deməkdir. Cinlər aləmi, insan aləmi, ruhlar alə mi, heyvanlar aləmi, mələklər alə - mi və s. Bu saydığımız aləmlərin hər biri də öz arasında bir çox aləm və növə ayrılır. Bütün bunlar, yəni kainat, özündən başqa bir varlığın mövcud olduğuna şahiddir. Bunlar Allahın varlığının ən bö - yük dəlili və əlaməti olduğundan o, aləm adını almış dr.

Quran "Aləmlərin Rəbbi" deyərkən, kainatdakı bütün varlıqları və təsnif et - diyi "Aləm"i nəzərdə tutur. Aləm sözü, ümumiyyətlə, Qurani Kərimdə çox istifa - də edilir. Bununla yanaşı, İslam dinində, dünya və axirət aləmləri olaraq da iki ayrı aləm göstərilir. Dünya və axirətdə olan bü tün varlıqlar o aləmi, hamısı birlikdə isə kainatı meydana gətirir. Bunların da yaradıcısı Allahdır. Dünya və axirət aləmləri söz etibarilə dünya "əvvəl", "sonra" mənasını verən axirət isə, sonra yaşanacaq bir aləmdir. Dünya aləminin digər adı "Fani" yəni "keçici aləm"; axirətin digər adı isə "baqi aləm"dir. Bu iki aləm ya - lan aləm (dünya) və gerçək aləm (axirət) şəklində istifadə edildiyi kimi, mükəlləfiyyət və məsuliyyət dünyası, cəza və mü - kafat aləmi şəklində də ifadə edilir. Bu səbəbdən dünya ilk aləm, axirət də son aləm olur.

Cənabı Haqq Araf surəsində: **"Şübhəsiz Rəbbiniz yeri, göyü altı gündə yaradan, sonra Ərşə hökm edəndir. O, gecə ilə onu dayanmadan izləyən gündüzü bürüyər. Əmrinə tabe olan günəş, ay və ulduzları da yaratmışdır. Yaxşı bilin ki, yaratmaq və (insanlara) əmr etmək tək ona məxsusdur. Aləmlərin Rəbbi olan Allah ucalar ucasıdır".** (Araf, 7/54) buyuraraq kainatın, alə min necə yaradıldığını, bunun rəhbərliyinin kimin əlində, hökm etmə haqqının kimdə olduğunu bildirərək aləmin ikiyə ayrıldığını, bunlardan birinin "Əmr aləmi", digərinin "Xəlq (yaratma) aləmi" olduğunu ifadə edir.

Əmr aləminə, qeyb, mələkut, cəbərut, ruhani, nurani, ülvi və mənəvi aləm adı verildiyi kimi, xəlq aləminə də şahidlik,

Dünya və axirət aləmləri söz etibarilə dünya "əvvəl", "sonra" mənasını verən axirət isə, sonra yaşanacaq bir aləmdir. Dünya aləminin digər adı "Fani" yəni "keçici aləm"; axirətin di gər adı isə "baqi aləm"dir. Bu iki aləm yalan aləm (dünya) və gerçək aləm (axirət) şəklində istifadə edildiyi kimi, mükəlləfiyyət və məsuliyyət dünyası, cəza və mükafat aləmi şəklində də ifadə edilir.

mülk, zülmani, cismani, maddi aləm deyilmişdir. Hər iki aləm birlikdə və eyni anda mövcuddur. Əmr aləminə ruhani və mənəvi aləm də deyilir. Əmr və xəlq aləmləri yaradıldıqdan sonra iç-içə olmuş insanın bu iki aləmdəki əlaqələri də birbirləriylə daim bağlıdır. Bu halda xəlq alə mi maddi və cismanidir. Belə ki, onlar eyni zaman və məkan içində birlikdədir. Eynilə ruh ilə bədənin birlikdə olduğu kimi. Əmr, yəni ruhani aləm zaman və məkana ehtiyac duymaz. Alimlər bu aləmin üzərində dayanaraq, ruhani aləmə saleh əməl, ilham, eşq və kəşf ilə nüfuz etməyə çalışırlar. Onların gəldikləri qənaətə görə aləmin beş ayrı mərtəbəsi vardır:

1-Uluhiyyət mərtəbəsi
2-Ruhlar mərtəbəsi (Əmr aləmi)
3-Misal aləmi
4-Cisim aləmi,
5-İnsanı Kamil (yetkin insan)

Bunlar da öz növbəsində aşağıdakı kimi izah olunur.

Aləmi Əla: Ən uca aləm demək olub kainatı yaradan Rabbül-aləminin Ağalıq aləmidir.

Bərzah aləmi (boğaz): Bərzah, iki şey arasında olan maneə, iki obyekti bir-bi rindən ayıran şey deməkdir. Dünya ilə axirət arasında olduğu üçün ölüm anından qiyamə tə, insanların təkrar dirilmələrinə qədər keçəcək zamana da Bərzah deyilmişdir.

İslami bir termin olaraq bərzah aləmi isə insanların ölüm anından etibarən ruhlarının getdiyi və qiyamətə qədər müvəqqəti qaldığı yerə deyilir. (Ö. N. Bilməyin, İzah edilən Elmi Kəlam, s. 247). Bu, axirət həyatının ilk mərhələsidir.

Öldükdə bədən həyatiliyini itirər. Lakin ruh ölməz. Ruh bədəni tərk edincə daha üstün bir aləm olan Bərzah aləminə keçər. Qiyamətdə, insanların təkrar dirilməsinə qədər orada qalar.

İnsan ruhunun üç mərhələsi vardır:

a-Dünyada bədənimizdəki vəziyyəti,

b-Öldükdən sonra bərzah aləmindəki vəziyyəti,

c-Axirətdə təkrar dirilmə ilə başlayan vəziyyəti.

Dünyada ruhumuz bədənimizlə bərabərdir. Xoşbəxtlik və bədbəxtliyi, kədər və sevinci ruhumuz bədənimizlə birlikdə dadar. Axirətdə, təkrar dirilincə də vəziyyət belə olacaq.

Bərzah aləmində isə əzab və neməti dadan yalnız ruhdur. Hərçənd insan bu dünyada etdiyi yaxşı və ya pis əməlinin qarşılığını axirətdə təkrar dirildikdən sonra görəcək. Amma bərzah aləmində də bunu az və ya çox dadacaq. Qurani Kərimin bildirdiyinə görə aləmi bərzahda Firon və yandaşları kimi kafirlər əzab görəcəklər, **"Gözəl əməl işləyən mö minlər isə Allahın mükafat və nemə tinə məzhər olacaqlar".** *(Ali İmran, 3/169-171)*

Ruhun aləmi bərzahdakı vəziyyəti, insanın yuxu halına bənzədilə bilər. İnsanın yuxu halı necə ki, yaşayışla ölüm arasında başqa bir aləmdir; bunun kimi alə mi bərzah da dünya həyatı ilə axirət həyatı arasında olan, lakin tamamilə dəyişik bir aləmdir.

Cəbərut aləmi: Təsəvvüf; bir termin olaraq Cəbərut; cəbr və məcbur etmə de-

məkdir. İlahi qüdrət və iradənin təsirli olduğu aləmə cəbərut aləmi adı verilmişdir. Burada insan və ya başqa heç bir məxluqun güc və iradəsi təsirli deyil. Söz olaraq İbrani dilində qüdrət mənasını verən "Geburah" sözündən gəldiyi bilinir. Cəbərut aləmi; mülk aləmi ilə Mələkut aləmi arasındadır. Yəni orta aləm olan Cəbərut aləmi, üstdə olan Lahut aləmi ilə altda olan Mələkut aləminin ortasıdır. (Cürcani, Kitabut-Tarifat, Cəbərut mad.)

Başqa bir tərifə görə isə, Cəbərut Aləmi Allahın təqdirinin, yəni qəzasının olduğu yerdir.

Əmr aləmi: Maddi olmayan, ağıl və hisslə qavranmayan aləmdir. Əmr aləmi ilə Xəlq aləminin üstündəki hər şey ağla və hissə bağlıdır. Ruh və Mələklər bu aləmə daxildir. Buna Qeyb aləmi və Mələkut aləmi də deyirlər.

Ərvah aləmi: Ruhlar aləmi demək olub insan ruhlarının bədən vasitəsiylə dünya həyatına qovuşmadan və öldükdən sonra olduğu yerə verilən addır. Dünyaya gəlib insanın bədəninə girən ruh daim bu əsl vətəni üçün darıxır. Bu ayrılıq dövründə, yəni dünyada insan bədənində olarkən qərb sayılır. Burada yaradılmış olan ruhlar, həm özlərini, həm də digər ruhları tanıyırlar.

Əsma və Sifət aləmi: Cənabı Allahın ad və sifətlərinin bilindiyi aləmdir.

Xəlq aləmi: Məxluqat yəni yaradılmışlar aləmidir. Əmr aləminin əleyhdarı olan Xəlq aləmi; maddə, əşya və ayan aləmidir. Burada səbəb-nəticə əlaqəsi etibarlı olub hər şey ağıl və duyğu orqanları ilə bilinir. Xəlq aləmi, Əmr aləminə bağlıdır. Müxtəlif səbəb və hikmətlərə görə tədrici bir şəkildə yaradılmışdır. Buna eyni zamanda Mülk aləmi və ya şahidlik aləmi də deyilir.

Kübra aləmi: Ən böyük aləm mənasında olub buna Əkbər aləmi adı da verilir. Kübra Aləminə xarici görünüşə görə kainat deyilir. İnsanı əhatə edən kainat da bu üç aləmdən ibarətdir.

Mələkut Aləmi: Təsəvvüfü bir təbir olub, Mülk aləmi ilə Cəbərut aləmindən sonrakı aləmdir. Buna "Qeyb Aləmi" də deyilir. Məna və ruh aləmidir. İslam filosof və alimlərinə görə Mələkut aləmi duyğularla qəbul edilən kainatın xaricində qalan, tək düşüncədə yaşayan və görünməyən varlıqların olduğu aləmdir.

Misal aləmi: Ruhlar aləmi ilə cisim aləmi arasında olan bir keçid aləmidir. Bunun digər adı "Bərzah aləmi"dır.

Mülk aləmi: Xəlq aləmi olaraq da bilinən Mülk aləmi dünyanın özüdür. Buna Şahidlik aləmi də deyilir.

Suğra aləmi: Ən kiçik aləm deməkdir. Aləmi Kübranın qarşılığı olaraq qəbul edilir. Suğra Aləmi də insanın özüdür. Bunun üçün fəlsəfə və təsəvvüfdə bu iki aləm belə ifadə edilir: "Aləm böyük bir insandır. İnsan isə kiçik bir aləmdir". Bu da insan quruluşu ilə kainat arasındakı bənzərlikdən qaynaqlanır. Çünki insan maddi bir bədənə, eşidən bir ruha və düşünən bir ağıla malikdir. İnsan ilə kainat arasında əlaqə yaradanlar kainatda var olan hər şeyin bir bənzərinin insanda da var olduğunu qəbul etmişlər. Bu da bir fəlsəfə və təsəvvüf təbiridir.

Samirə MAHMUDOVA

Son Dayanacaq

Ölüm fani (müvəqqəti) bir həyatın sonu, əbədi olan axirət həyatına ilk keçiddir. İnsan nə qədər ölümü uzaqlaş drma ğı səy göstərərsə, ölüm yenə bir gün onun qapısını döyəcəkdir. Peyğəmbər (s.ə.s.) "Qocalıq ilə ölümdən qurtuluş yoxdur" bu - yurmuş, ölümdən qorxmaq, ürpərmək deyil ona hər zaman hazırlıqlı olmağın əhəmiyyətinə diqqətləri çəkmək istəmişdir.

Yaşamaq insanlar üçün nə qədər təbii bir hadisə isə ölüm də hə - yatın təbii bir nəticəsidir. Hər doğulan bir gün dünyadan gedəcəyinin şüuru içində olur. Heç kəs ölümdən ca - nını qurtarmamışdır. Peyğəmbər (s.ə.s.) "Qocalıq ilə ölümdən qurtuluş yoxdur" buyurmuş, ölümdən qorxmaq, ürpər - mək deyil ona hər zaman hazırlıqlı olmağın əhəmiyyətinə diqqətləri çəkmək is - təmişdir.

Ölüm fani (müvəqqəti) bir həyatın sonu, əbədi olan axirət həyatına ilk keçiddir. İnsan nə qədər ölümü uzaqlaş drmağa səy göstərərsə, ölüm yenə bir gün onun qapısını döyəcəkdir. İslam Tarixin - də ədəbi və əxlaqı ilə dərin cığırlar açan islam sərkərdələri və alimlər daim ölümü xatırlamış, dünyaya tamamilə alüdə olmamışlar. Başlarına gələn hər sıxıntı və bəlanı böyük bir iman kamilliyi, mətanət və səbirlə qarşılamış, dünyadan küsməmiş, hər nemət və ehsana qarşı da daima Allaha həmd və şükür duyğusu içində olmuşlar. İslam Xəlifələrindən ikincisi Əl-Fəruq ləqəbli Hz. Ömər (r.a.) bir nəfərə davamlı maaş verərək ona hər gün ölümü xatırlatmasını istəmiş, bir gün aynada özünə baxanda saqqalındakı ağları gördüyündə muzdluya:

- Artıq mənə hər gün xatırlatmana ehtiyac yoxdur. Saqqalımdakı ağlar mənə hər gün ölümü xatırladacaq - deyərək onu işindən azad etmişdir.

İnsan övladı ölümün mahiyyəti haqqında geniş açıqlamalar olmadığına görə onu heç olmayacaqmış kimi unudur. Ümumiyyətlə, ölümdən qorxan insanla - rın əksəriyyəti inanc və əqidəsi ya zəif, ya da heç olmayan insanlardır. İnsan Allah Təalanın hikmətinə uyğun olaraq ölüm mələklərini görə bilər. Bəziləri

ölümlərindən bir neçə gün qabaq, bəziləri isə ölüm anında. İmam Gazzali "Qiyamət və Axirət" adlı əsərində ölən insanların son anda keçirdikləri hisslərin onların imanından xəbər verdiyini bildirməkdədir. O deyir ki: " İnsanlar ölüm hadisəsini müxtəlif şəkillərdə qarşılayırlar. "İnsan əgər mömindirsə, ölən anda üzünə bir nur gələr, alnı və ağzının üstü tər damcıları ilə örtülər və gülümsəyərək həyata vəda edər. Hətta deyilənlərə görə mömin insan bu həyatdan tez qurtulmağa can atar və yaxınlarının onu rahat buraxmasını istəyər. Ölüm mələkləri onun yanına imanı ölçüsündə gələr və ruhunu Qurani Kərimin ifadəsi ilə yüngülcə çəkib alarlar.(Naziat,79/2) Günahı çox olanlara və ya kafirlərə gəlincə onlar yaxınlarına daima qorxduğunu, onu yalnız buraxmamaları üçün yalvarar, dünyanı tərk edib getmək istəməz. Ölüm mələklərinin yanına qorxunc surətdə gəldiyini gördüyündə ölüm anında artıq gedəcəyi yeri bilməkdədir. Üzünü qorxunc bir ifadə bürüyər, gözləri bərələr və ağzından köpük gələr.

Ölüm yatağında olan bir insan üçün başlıca görüləcək işlərdən birisi onun hər kəslə halallaşmasını təmin etməli, borcları varsa ödəməli, və ya yaxınları tərəfindən ödənməli, beləcə qul haqlarından az da olsa qurtulmasını təmin etməkdir. Canı boğazında olan insana arada bir pambıqla ağzına su damcılatmaq, kəliməyi-şəhadət və tövhidi tez-tez qulağına pıçıldamaqla da onu çətin sınaq yeri olan qəbir sorğu-sualına hazırlamış oluruq.

Allah Təala hər birimizi ruhumuzu kəlimeyi-şəhadət, kəliməyi-tayyibəsi ilə verməyi nəsib etsin və saleh qullarından eyləsin, inşallah. Amin!

HƏYAT

Sən də bir röyasan, ey insan, anla,
Bir tək qazanarsan tutsan anlardan.
Zaman bir dənizdir, anları damla,
Dəniz, dəniz olub bu damlalardan.

Ömrün bir andır vurub tutduğun,
Tək əməl olacaq ömürdən qalan.
Zamanı nə sən tut, nə də mən tutum,
Çünki o tutulmaz, qaçar hər zaman.

Hər anın dəyəri bilinə gərək,
Zamanlar yox olur ağılsızlıqdan,
Həyatda dəyəri bilinməyərək,
Neçə zaman ölüb zamansızlıqdan.

Dünya bir alovdur, insan pərvanə,
Alovun oduna bizlər yanırıq.
Nə zaman qocalır, nə də zəmanə,
Onların içində biz qocalırıq.

Oturub bir düşün, ölümü sal yada,
Bir iş gəlməyəcək o an əlindən.
Bu varın, dövlətin qalıb dünyada,
Onlar da qurtarmaz səni ölümdən.

Bütün nəfəslərin daddığı ölüm,
Bir gün bizlərə də gəlib çatacaq.
Torpağı tapdayan hər can, büsbütün,
Torpağa çevrilib tapdaq olacaq...

Eldar Kərimli

Elif GÜLDAR

SONSUZ HƏYATA YOLÇULUQ

Hər birimiz cənazə mərasiminə getmişik. Musalla daşına qoyulan tabutdakı yaşıl örtünün üzərində Ərəbcə nə yazıldığına heç diqqət etdikmi? O yaşıl örtünün üzərində bir ayə yazılmışdır. **"Hər nəfs ölümü dadacaqdır".** Quran təmamilə "öləcəksiniz" demir, ölümü "dadacaqsınız" deyir. İnsan ölümü daddığı anda öldüyünü fərq etməz. İnsan öz bədənini yuyanı, cənazə namazını qılanları və ətrafındakıları görür və tanıyır. Onu qəbirə qoyduqdan sonra uzaqlaşanların ayaq səslərini eşidir. Sonra qəbrin içindəykən Münkər, Nəkir mələkləri gəlir və onların sualları başlayır...

Bir yerdə dümdüz yatırsınız, ətrafınızda da insanlar var. O anda əlinizi qaldırmaq istəyirsiniz, qaldıra bilmirsiniz. Bir şey demək istəyirsiniz səsiniz çıxmır, bir anda sizi vahimə bürüyür. Diqqət edin. Ağlınız, şüurunuz, idrakınız, bütün duyğularınız yerindədir, ətrafınızda baş verənləri görürsünüz. Lakin bədən bir anda yıxılıb, qalıb. "Cənazələrinizin yanında qışqırıb, bağırmayın onlara əziyyət edirsiniz. Çünki; o ölü deyil!!" Elə bu anda bədəninizi düz bir yerə uzadırlar, adətə görə gətirib üstünə bir bıçaq, qoyurlar. Siz orda ətrafınızda ağlayanları seyr edirsiniz. Sonra sizi bir qüsulxanaya aparırlar, üstünüzə su tökürlər, sizi o yana, bu yana çevirirlər, siz nə qədər çalışsanız da onlarla danışa bilmirsiniz, "Mən yaşayıram!" deyə bilmirsiniz. Amma sizi yuyanları görürsünüz, bilirsiniz, tanıyırsınız, amma maddi dünya ilə əlaqəniz qopub. Pulum deyirsiniz, işim, vəzifəm, anam, ailəm, övladlarım deyirsiniz! Amma onlara toxuna bilmirsiniz. Daha sonra sizi ağ bir kəfənə bürüyürlər, taxta bir sandığın içinə qoyurlar, üstünü zi bağlayırlar, amma o taxta sizin görmənizə mane olmur, çöldə olanları seyr edirsiniz. Gözləri yaşlı, hüzünlü insanları görürsünüz. Sonra sizi bir musalla daşına qoyurlar. Hüzünlü an, ətrafınızda ağlayırlar, qışqırırlar. Gözü yaşlı həyat yoldaşınız, dostlarınız, övladlarınız, ananız, atanız… Və siz bunları da seyr edirsiniz... Sonra sizi bir məzarın yanına gətirirlər. Torpağın üzərinə qoyurlar, məzar qazılır, yanınızda hüzünlü insanları görürsünüz. Bax o anda həyatınızın ən böyük vahiməsi başlayır. Çünki ağlınız, şüurunuz, idrakınız, bütün duyğularınız sizinlədir, yəni siz o anda yaşayırsınız və o məzarın içinə qoyulacağınızı, üstünüzə torpağın atılacağını və orada qalacağınızı, görüb hiss edirsiniz.

Hz. Ömər (r.a.) soruşur: "Ya Rəsulallah! Mən məzara qoyulduğum zaman indiki ağlım, idrakım, duyğularım, şüurum yerində olacaqmı?"

"Bəli, ya Ömər! İndiki kimi ağlına, idrakına, duyğularına malik olacaqsan".

Sizi sevdiklərinizin əlləri ilə torpağa, o

məzarın içinə qoyurlar, üstünüzə torpağı atmağa başlayırlar. Taxtalar və ya beton daşlar qoyulur, çöldən əlaqəniz kəsilir. Amma çöldəki səsləri eşidirsiniz, torpağın içində qaldığınızı hiss edirsiniz. Bəli, bədəndə o ana qədər heç bir şey hiss etmirsiniz amma, siz o torpağın içindəsiniz. Bağırmaq, qışqırmaq istəyirsiniz: Məni buraya tərk etməyin! Məni buraya qoymayın!, Mən yaşayıram! Canlıyam! Diriyəm! Mən də sizin qədər şüurluyam! Onlara səsinizi eşitdirə bilmirsiniz və sizi oraya qoyurlar, üstünüzə torpaq tökürlər, işıq itir, qapqaranlıq bir məzarın içində tək-tənhasınız... Amma artıq ətrafla əlaqəniz yoxdur və məhşərə qədər də burdasınız. Peyğəmbərimiz (s.ə.s.) belə buyurur: *"İnsan qəbirə qoyulduğu zaman o vahimə içində elə qışqırır ki, fəryadı ərşə qədər yüksəlir. Lakin təəssüflər olsun ki, insan qulağı o qışqırtını eşidə bilmir"*. Bax, o vahimə anında düşünürsünüz ki, sizə dünyada ikən deyilən, ölüm yoxdur! Həyat davam edir! O biri həyata özünü hazırlamasan peşman olarsan! Xəbərdarlıq olunmuşdu, bildirilmişdi, lakin bunlara əhəmiyyət verməmişdin. Artıq məzardan geriyə dönüş yoxdur. Bitir, hər şey sona çatır. O anda fiziki heç bir şey yoxdur, amma sizin yaşadığınız gerçək kabusdur. Bax məzarda elə bir kabusun içinə düşürsünüz ki, oyanma, geriyə qayıtma yolu yoxdur. Artıq saysız sirlərlə dolu olan qəbir həyatı başlayır… Olduğumuz yerdən başqa bir yerə qısa müddətə gəzməyə getməyə qərar verərkən belə , 6 ay əvvəldən hazırlıq görürük, oranın şərtlərini öyrənirik, nə aparım, nə gətirim, orda harada qalım deyə onu araşdırırıq. Ömür boyu, sonsuz yaşayacağımız bir yerə gedəcəyimiz halda, oranın şərtlərini araşdırmağı lazım bilmirik. Hazırlanırıq, amma əvvəlcə oranın nə olduğunu öyrənib, sonra hazırlanmalıyıq, bilmədiyimiz bir şeyə necə tədbir ala bilərik. Heç birimizin nə qədər yaşayacağımıza dair sığorta sənədimiz yoxdur. Bir damarındakı tıxanma, bir beyin qanaması sənin neçə yaşın olursa olsun, həyatının sonu ola bilər. Şair nə gözəl söyləyir:

"Böyük görüşmə... Bilsəm harada, saat neçədə?

Tabutun taxtası, bilsəm hansı ağacda?"

O andan etibarən sənə nə ailəniz, nə puluruz, nə həyat yoldaşınız, nə ana-atanız, nə də bir başqası fayda edəcək. Bəs, o ölümdən sonrakı yolçuluğa hazırlanmadıqsa, bizi kim qurtaracaq, nə qurtaracaq?

Həsən Basri (r.a.) rəvayət etdiyinə görə, Rəsulullah (s.ə.s.) ölümün verdiyi dəhşəti və ələmi belə tərif etmişdir: "Ölümün verdiyi acı üç yüz qılınc zərbəsi qədərdir". Hz. Əli (r.a.)dan soruşurlar, evini niyə görə məzarlığa yaxın tikmisən? "Dedi-qodudan qoruyur və ölümü xatırladır", deyə cavab vermişdir. Salman Farisi (r.a.) vəfatına yaxın Mədain şəhərində yaşayırdı. Daha əvvəl xanımına verdiyi mis qoxusunu gətirməsini və miski su ilə qarışdırıb ətrafa tökməsini istədi. Az sonra qonaqlarım gələcək deyərək ölümü qarşıladı. N.Fazıl Kısakürekin dediyi kimi:

"O dəm ki, pərdələr qalxar, pərdələr enər

Əzrailə "xoş gəldin!" deyə bilməkdədir hünər".

Gerçək igidlik və qəhrəmanlıq "Nə olar ki, Əzrail də olsa, gələn mələk deyilmi?" ədası ilə, bir bayram sevinci və təbəssümü ilə qarşılaya bilməkdir ölümü...

"Bu dünyada rəng, naxış, ləzzət, nə varsa küsüm,

Gözümdə son marifət, Əzrailə təbəssüm..."

Gerçək igidlik və qəhrəmanlıq "Nə olar ki, Əzrail də olsa, gələn mələk deyilmi?" ədası ilə, bir bayram sevinci və təbəssümü ilə qarşılaya bilməkdir ölümü... "Bu dünyada rəng, naxış, ləzzət, nə varsa küsüm, Gözümdə son marifət, Əzrailə təbəssüm..."

Aygün MƏMMƏDZADƏ

ÖLÜM HAQDIR

Dünyaya gələn hər kəs ölməyə məhkumdur, aradakı fərq yalnız qonaq olduğumuz dünyada qalma müddətinin azlığı və ya çoxluğudur. Əslində, ürəyimizin hər döyüntüsü yaxınlaşmaqda olan əcəlimizin ayaq səsləridir. Müsəlman ölümdən qorxmamalı, onun hər kəsin başına gələcək olan bir gerçək olduğunu qəbul etməlidir. Əslində, biz ölərkən Yaradana qovuşuruq.

Dünyaya gələn hər kəs ölməyə məhkumdur, aradakı fərq yalnız qonaq olduğumuz dünyada qalma müddətinin azlığı və ya çoxluğudur. Əslində, ürəyimizin hər döyüntüsü yaxınlaşmaqda olan əcəlimizin ayaq səsləridir. Müsəlman ölümdən qorxmamalı, onun hər kəsin başına gələcək olan bir gerçək olduğunu qəbul etməlidir. Əslində, biz ölərkən Yaradana qovuşuruq. Bir müsəlmanın bu şüurla yaşaması və ölümdən sonraya hazırlıq görməsi ölümü gözəlləşdirən amillərdəndir. Eyni zamanda yaxınlarını itirən bir adam da buna etiraz etməməli, Allahın əmrinə təslim olaraq üsyan sayılacaq əməllərdən uzaq durmalıdır.

Həzrət Peyğəmbər (s.ə.s.) ölüm və buna bənzər hadisə ilə qarşılaşan kimsələrə səbir etmələrini, dua ilə Allaha sığınmalarını buyurmuşdur:

"Müsibət və fəlakətlə qarşılaşan və "Biz Allaha aidik, şübhəsiz ona dönəcəyik. Allahım müsibət içində mənə əcr ver, itirdiyimdən daha xeyirlisini ehsan et", deyən heç bir qul yoxdur ki, Allah ona müsibəti müqabilində əcr verməsin və itirdiyinin yerinə daha xeyirlisini lütf etməsin". (Müslim, Əhməd b. Hənbəl) Allah-Təala Qurani-Kərimdə fəlakətə düçar olduqda səbir edərək və "innə lilləhi" deyərək Allaha sığınanları məth etmiş, onları rəhmət və hidayətlə müjdə b miş dr. (əl-Bəqərə, 156)

Ölüyə ağlamaq

Yaxınlarını, sevdiklərini itirən insanların acı çəkmələri, bu acının gözə hücum edən yaşlar, ruhlara hakim olan hüzün və kədərlər ilə təzahür etməməsi mümkün

deyil. İslam bu kimi hallarda kədərlən - məyi və ağlamağı qadağan etməmişdir.

Üsamə b. Zeyd nəql edir: *Hz. Peyğəmbərin (s.ə.s.) qızı ona "oğlum ölmək üzrə dir, tez bizə gəl", -deyə xəbər göndərdi. Hz. Peyğəmbər (s.ə.s.):*

"Aldığı da, verdiyi də şübhəsiz ki, Allahındır. Hər kəsin Allaha məlum bir əcəli vardır. Səbir etsin və əcrini Allahdan gözləsin!", -buyurdu. Qızı ardınca bir nəfər də göndərib israrla gəlməsini istədi. Hz. Peyğəmbər (s.ə.s.) yanında Sad b. Übadə, Muaz b. Cəbəl, Übey b. Kəb, Zeyd b. Sabit və başqa səhabələrlə qızının evinə yollandı. Uşağı qucağına verdilər, uşaq xır-xır edərək can verirdi. Hz. Peyğəmbər (s.ə.s.)-in gözlərindən yaş axırdı, bunu gö rən Sad soruşdu:

"- Bu nədir, ya Rəsulallah? Həzrət Peyğəmbər buyurdu:

"Bu elə bir rəhmət və mərhəmətdir ki, Allah onu qullarının qəlblərinə yerləşdirmiş və Allah qulları arasında ancaq mərhəmət sahibi olanlara rəhmət eyləyər".

Təziyə

Yaxınlarını itirən bir ailənin fərdlərinə başsağlığı vermək müstəhəbdir. Hz. Peyğəmbər (s.ə.s.) təziyə vermiş və səhabələri də buna təşviq etmişdir. Təziyə ölkəmizdə "Allah rəhmət etsin, geridə qalanlara uzun ömür versin!" kimi sözlərlə ifadə edilir. Təziyənin lüğət mənası "səbir etmək, səbrə təşviq etmək"dir. Acı çəkənə səbir etməsini, Allahın səbrinə qarşı əcir verəcəyini, hamımızın Allaha aid olduğumuzu və təkrar Ona dönəcəyimizi deməklə bu vəzifə yerinə yetirilmiş olur. Eyni ərazidə yaşayanlar üçün təziyə üç gündür. Üç gündən artıq təziyə vermək doğru deyil, çünki bu, kədərin yeni lənməsinə səbəb olur.

Yas olan ailəyə süfrə açmaq

Rəsulullahın əmisi oğlu Hz. Cəfər (r.a.) Mutə döyüşündə şəhid olmuşdu. Rəsullah (s.ə.s.) yaxınlarına: *"Cəfərin ailəsinə yemək bişirin, çünki onlara fəlakət üz verib, yemək-içməyə vaxtları yoxdur"*, -demiş dir. (Əbu Davud, Məa-Avnil-Məbud, c. III, s. 164.)

Qohumların və qonşuların ölüm fəlakətinə düçar olmuş ailəyə birgünlük yemək hazırlayıb aparması müstəhəbdir. Amma ölünün öz ailəsinin yemək hazırlayıb başqalarına ikram etməsi həm cahiliyyə dövrü adətlərindən olduğu, həm də yersiz əziyyət sayıldığı üçün İslam alimləri tərəfindən məkruh sayılmış, hətta bəzi alimlər bunun haram olduğunu söyləmişlər. (İbn Qudamə, əl-Muğni, c. II, s. 410; İbn Abidin, (Məcmuatur-Rəsail), c. I, s. 182; Rəddul-Muxtar, c. I, s. 663, Şeyx Əli Məhfuz, s. 218.)

Qəbir ziyarəti

Hz. Peyğəmbər (s.ə.s.) İslamın ilk illərində qəbir ziyarətini qadağan etmişdi. Buna səbəb cahiliyyə dövründən yeni çıxan müsəlmanların qəbir ziyarəti sə bə bilə bəzi batil inanc və adətlərə meyil etmə lərinin qarşısını almaqdır.

İslam ürəklərdə kök atdıqdan sonra isə qəbir ziyarətinə icazə verdi və bunu "axirəti xatırlama" hikmətinə bağladı. *"Sizə qə birləri ziyarət etməyi qadağan etmiş dim, artıq onları ziyarət edin. Çünki bu si zə axirəti xatırladır".* (Müslim, Əbu Davud, Nəsai)

Hz. Peyğəmbərin anasının qəbrini ziyarət etdiyi, həmçinin Hz. Fatimənin və Hz. Aişənin qəbir ziyarətləri haqqında rəvayətlər vardır. (Buxari, Kitabul-Cənaiz, bab: 151; Şevqani, Neyl, c. IV, s. 117-120; Əbu Davud, Maal-ayn, c. III, s. 212.)

Qəbir ziyarətinin aşağıdakı faydaları var:

1. Ziyarət edən kəs ölümü və axirəti xatırlayar.

2. Əməlisaleh bəndələrin qəbirlərini ziyarət ruhlara rahatlıq, ülvi duyğulara bərəkət verər.

Fatimə ZƏHRA

BİR GÜNÜN HESABATI

Haqq dostları, ümmətə bəzi məsləhətlər və xəbərdarlıqlar etmişlər ki, bunlar, insanın günlük həyatda özünü necə mizan və mühasibat etməsi lazım gəldiyinə dair gözəl bir nümunədir:

1. Bu səhər həyat dəftərini necə açdın? Sənə yeni bir gün lütf etdiyini düşünərək Rəbbinə şükür etdinmi? Bu yeni gündə Rəbbinə qulluq əhdini yenilədinmi?

2. Cənabı Haqq səni təhəccüd vaxtında istiğfara dəvət edərkən, sən o vaxtda coşub daşan ilahi rəhmət və mağfirətdən nə qədər nəsiblənə bildin? Yoxsa yağmur damlalarının qayaların üzərindən boşa axıb getdiyi kimi, o xüsusi lütf anını zay etdin?

Rəsulullah (s.ə.s.) belə buyurur:

"Hər gecə, Rəbbimiz gecənin son üçtə birində, dünya səmasına nəzər edər və:

«Kim Mənə dua edir, ona razılıq edim, kim Məndən bir şey istəyir, onu verim, kim Məndən bağışlanmaq istəyir, onu bağışlayım». (Buxari,Töhid 35, Təhəccüd 14, Dəavat 13; Müslim, Müsafirin, 166)

3. Təhəccüd vaxtının feyzini bütün gününə əks etdirə bildinmi? Bu gün həyatın nə qədər zikrullahla keçdi? Rəbbini nə qədər xatırladın?

4. Hansı namazlarını camaatla qıldın? Namazlarında təkbirləri, qiyamları, qiraətləri, rükü və səcdələri Haqqın istədiyi kimi, yəni huşu içində, ruh və bədən ahəngi ilə yerinə yetirə bildinmi?

5. Bu gün, səni pəncəsinə keçirmiş hər cür yalnış hərəkətlərə qarşı iradəni göstərə bildinmi? Allah Təala bildirdiyi halda, səndə olan yalnış hal və hərəkətlərdən vicdanən bir narahatlıq duydunmu? Bunlara görə peşmançılıq göz yaşları tökdünmü?

6. Bu gün dilini, boş və mənasız söhbətlərdən, yalan və qeybətdən, münaqişə və bir qəlb qırmaqdan mühafizə edə bildinmi?

7. Bu gün, sənin üçün yaradılan bu kainatdakı büllur bir ahəng təşkil edən ulduzları, səmanın sonsuzluğunu, yer üzünə həyat verən günəş və ayı, sərmayəsi eyni torpaq olan bitkilərin rəngarəng

yarpaq və çiçəklərini, rəng, iy, ləzzət və şəkilcə sonsuzluq ərz edən meyvələrini, ancaq bir-iki həftəlik ömrü olduğu halda kəpənə yin qanadlarındakı möhtəşəm naxışları, insanın yaradılışındakı ibrətli məqamları təfəkkür edib ilahi təcəlli və qüdrəti könül gözü ilə seyr edə bildinmi?

8. Bu gün, Yaradandan ötrü yaradılanlara şəfqət, mərhəmət və məhəbbət nəzəri ilə baxa bildinmi?

9. Bu gün Allahın sənə ehsan etdiyi nemətləri kimlərlə və nə qədər paylaşa bildin?

10. Bu gün bir mömini sevindirməyin həzzini dada bildinmi? Bir dərdlini təsəlli edib ona təbəssüm etdirə bildinmi? Bir kö nül qazana bildinmi?

11. Bu gün bir yetimin başını oxşadınmı?

12. Bu gün xəstə ziyarətində və cənazə mərasimində oldunmu?

13. Bu gün qonşularınla və yaxınlığındakı möhtaclarla maraqlandınmı? Ac yatan qonşunun, soyuqda titrəyən yoxsulların iztirabı ürəyini sızlatdımı?

14. Yer üzünün harasında olursa olsun, məzlumların dərdi ilə dərtləndinmi? Bu gün məzlumların yanında olub, onların acı sını paylaşdınmı? Qəlbin onlarla birlikdə titrədimi, gözün onların dərdi ilə yaşardımı, onların iztirabı ürəyində sancıya səbəb oldumu?

15. Bu gün acların doyması, xəstələrin şəfa tapması, borc altında əzilənlərin rahatlığa çıxması üçün əlindən gələni edib, dua etdinmi?

16. Bu gün qul haqqına, hətta heyvan haqqına diqqət etdinmi? Qapında ac qalan pişik və köpəkdən məsul olduğunu heç düşündünmü?

17. Bu gün hidayətə möhtac insanlara di linlə, halınla və qəlbinlə nə qədər yardım edə bildin? Onlara halınla da "müsəlmanlığı" sərgiləyə bildinmi?

18. Bu gün ananın, atanın, qohumlarının halını, xətrini soruşub könüllərini şad etdinmi? Əgər onlar axirətə köçüblərsə, ruhları üçün bir Fatihə oxuyub onları xeyirlə yad etdinmi? Onların köhnə dostlarına qarşı nə qədər vəfalı davrandın?

19. Bu gün, tanıdığın tanımadığın hər kə sə Allah üçün salam verdinmi? Təbəssü mü sədəqə bilib insanları gülərüzlə qarşılaya bildinmi?

20. Bu gün heç dost qazana bildinmi? Neçə dostunla dostluğunu yenilədin?

Bu gün, sənin üçün yaradılan bu kainatdakı büllur bir ahəng təşkil edən ulduzları, səmanın sonsuzluğunu, yer üzü nə həyat verən günəş və ayı, sərmayəsi eyni torpaq olan bitkilərin rəngarəng yarpaq və çiçəklərini, rəng, iy, ləzzət və şəkilcə sonsuzluq ərz edən meyvələrini, ancaq bir-iki həfəlik ömrü olduğu halda kəpənə yin qanadlarındakı möhtəşəm naxışları, insanın yaradılışındakı ibrətli məqamları təfəkkür edib ilahi təcəlli və qüdrəti könül gözü ilə seyr edə bildinmi?

21. Bu gün yoldan, insanlara əziyyət verə cək bir şeyi qaldırdınmı?

22. Bu gün ailə yuvanı könül gözü ilə seyr edib oranın cənnət bağçası olduğu idrakı ilə ətraf mühitin mənfi təsirlərindən özü nü qoruya bildinmi?

23. Allahın sənə əmanət olaraq ehsan etdiyi övladlarına, bu gün tərbiyə və ədəb olaraq nə öyrətdin? Allah və Rəsulunun eş qiri, ənbiya və evliyanın sevgisini qəlblə rinə aşılaya bildinmi? Onların qiyamət günü, sənin üçün ya üz ağı və ya üz qarası olacağını heç düşündünmü?

24. Əgər evin xanımısansa, yoldaşını gülərüzlə və məhəbbətlə yola salıb, halal ruzi gətirməsi üçün dua etdinmi? Axşam yenə onu təbəssüm və şirin dillə qarşılayıb yorğunluğunu aradan qaldırmağa, pak, təmiz və örnək bir ailə olmağa çalış dınmı?

25. Əgər evinin bəyisənsə, xanımına və övladlarına qarşı nə qədər müşfiq və mərhəmətli davrandın? Sənin onlara qoya biləcəyin ən böyük mirasın axirət mirası olduğunu düşünüb onlara qazandıra biləcəyin dünya və axirət səadəti üçün, yə ni onların ruhani və mənəvi tərəqqiləri üçün nə qədər səy göstərə bildin?

26. "Tarix hafize-yi millətdir". Yetişdirdiyin balalar, vətənin istiqbalının bir təzahürüdür. Onlara dininin, imanının, və tə ni nin bir əmanət olduğu şüurunu verə bildinmi? Bu cənnət vətəni bizlərə hə diyyə edən əcdadını və bu yolda canlarını fəda edən şəhidlərini, onların iman həyəcanlarını xatırlada bildinmi? Allahın ən bö yük neməti olan Quranın, səmalarımızda yayılan azanların və hür bir şəkildə dal ğalanan bayrağımızın ən böyük şərə f - miz olduğunu idrak etdirə bildinmi?

27. Bu gün insanların bir çoxu nəfsaniyyət anaforunda yox olarkən , sən ruhaniyyə tini qoruya bildinmi? Başda ailə üzvlərin olmaqla məsul olduğun insanları zamanın fitnə və şərlərindən qorumaq üçün hansı tədbiri aldın?

28. Bu gün şəxsi qüsur və zəifliklərindən qurtulmaq üçün bir Haqq dostuna baş çəkdinmi? Yenə bu gün bir Allah dostuyla və ya saleh insanlarla bərabər olmağa səy göstərdinmi? Sənə -nəfsinin xoşuna gəlməsə belə- Haqq rızası üçün daima doğruları söyləyəcək saleh və sadiq bir dost qazana bildinmi?

29. Bu gün elmini artıran, irfanını inkişaf etdirən hər hansı bir xidmət və ya fəaliyyət içində oldunmu? Rəsulullahın örnək hal və davranışlarına tabe olarkən hikmət axtarışına çıxdınmı? Bu ruhaniyyət və gözəllikləri yaşamaq üçün səy göstərdinmi?

30. Bu gün qazancının, yediyinin, içdi yinin, geydiyinin halalmı, şübhəlimi, harammı olduğuna diqqət etdinmi? Haramlardan çəkinmə duyğusu hər davranışında sənin lə bərabər oldumu?

31. Bu gün sənə pislik edən, sərt və kobud davranan bir insanı əfv edib ona yaxşılıq etdinmi?

32. Bu gün sənə Allahın ən böyük neməti olan Qurani Kərimdən neçə səhifə oxudun? Orada sənə verilən mesajları təfəkkür edərək onlara əməl etdinmi?

33. Bu gün vəfat edə biləcəyini, kəfənlənib qəbrə qoyula biləcəyini, bütün ailə üzvlərinin və tanışlarının səni məzara təslim edib geri dönəcəklərini, məzarda ancaq iman və əməlinlə baş-başa qala biləcəyini heç düşündünmü? Bu həyat kitabında qafilanə və boş keçən anların üçün nə qədər ah, vah çəkəcəyini ağlına gətirdinmi? İbadətlərini və davranışlarını bu düşüncələrlə istiqamətləndirib tövbə etdinmi?

34. Bu gün həyat dəftərini necə açdın, necə bağladın? Kiramən Katibin mələkləri oraya nələr yazdı? Böyük hesabat günündə bu günkü səhifənin hesabını verə biləcəksənmi?

35. Xülasə, bu gün, daimi bir həyat kasedinin doldurulmaqda olduğunu, hər hal və hərəkətinin ilahi bir kamera ilə izlən - di yini heç düşündünmü? Keçirdiyin son iyirmi dörd saatın hesabatını edib nəfsinlə hesablaşdınmı?

Qaynaq: Osman Nuri Topbaş, "Səadət Damlaları"

Aysel ƏMİRASLANLI

ŞÜBHƏ

"Şübhə olan qəlbdə hüzur olmaz!"

Şübhə elə pis bir kirdir ki, insanın həyatına yansıyan, onu rahat qoymayan, bəzən ağladan, bəzən həyatdan bezdirən, bəzən kobudlaşdıran, bəzən intahara sövq edən, üsyan etdirən bir xəstəlikdir.

İçində yaşadığımız bu dünya və indiki zamanəmizdə insanların 60%-dən çoxu şübhə altındadır. Bunun yaranma səbəblərini çox vaxt dedi-qodu olur. Ya özü danışdığı, ya da yanında danışılanlar insanı şübhələnməyə vadar edir. Eşidilən sözlər istər-istəməz şübhələnməyə səbəb olur. İnsan ondan birdəfəlik qurtulmaq üçün çıxış yolu axtarır. Baxdığı hər yerdən, gördüyü hər bir insandan kömək etmələrini istəyir, amma hamıya qarşı güvən duyğusu itir. Heç kimə güvənmədiyi üçün bunu kimsəylə paylaşa bilmir. Elə sanır ki, heç kim onu başa düşməyəcək.

Ancaq kiməsə danışmasan da rahatlıq tapa, həyatını əvvəlki kimi davam edə bilmirsən, çarəsiz qalırsan. Bu şübhədən qurtulmaq üçün dua etmək istəyirsən. Bəzən bacarırsan, amma bəzən də o qədər fikirləşib yorulursan ki, heç dua etməyi belə bacarmırsan. Bəzən insan imandan belə soyuya bilir.

Bir gerçək də var ki, dua möminin silahıdır. Dua etmək hər zaman lazımdır. Ola bilər ki, dua etdiyin zaman sənə gözlədiyin bir sübut, bir işarə gəlməsin, duan qəbul olmasın. O zaman belə ayaqda dimdik durmağı bacarmaq lazımdır. Çünki duan qəbul olmazsa belə, deməli, onun da bir hikməti vardır.

Allah bir qapını bağlayarsa, bir qapını da açar. O, hər şeyə qadirdir. Əgər Allaha sığınsaq, Ondan başqa kimsədən kömək istəməsək, acizliyimizi bildirsək onda Allah hər zaman köməyimizə yetər.

Şübhələr insanı sui-zənnə vadar edir, bu isə günahdır. Günah isə şeytanı sevindirməkdir.

Həmin vaxt insanın ağlında ancaq suallar olur:

"Bəlkə doğru deyil?!"

"Amma bəs doğru deyilsə niyə belə oldu, niyə belə etdi?

Neynəsən də cavab yoxdur, tapa bilmirsən. Şübhə qurd kimi insanın içini yeyib bitirir.

Bu məqaləni yazmaqda məqsədim, bu yazını oxuyanların arasında şübhədə qalanlar varsa, az da olsa onlara kömək olaraq Allaha istiqamətləndirməkdir. Çünki vaxtı ilə mənim də içimdə böyük bir şübhə var idı. Heç kimə açıb deyə bilmədiyim böyük bir şübhə... Heç gözləmədiyim bir adamdan mənə belə əzab verən böyük bir şübhə...

Amma mən yalnız Allaha sığındım, bunun üçün də o şübhəni yaxın zamanlarda həyatımdan siləcəyimə bütün varlığımla inandım. Artıq içimdə o şübhə yoxdur. Çünki ondan qurtulmağı bacardım. Allah kömək etdi. Çox şükür indi əvvəlkindən daha rahatam, daha hüzurluyam.

Ey müsəlman bacı və qardaşlar! Gəlin hamılıqla, "Allahım nə böyük problemim var deməkdənsə, problemimizə baxıb bu problemi aradan qaldıracaq böyük Allahım var deyək!"

Sevinc ƏZİMLİ

AXİRƏT

İslamın inanc prinsiplərinə görə axirət, son, sonra olan və son gün mənalarını bildirir. "Öldükdən sonra bütün bəndələrin düşəcəyi və əbədi qalacağı ikinci aləm... Dünya həyatında edilmiş əməllərin, söz və davranışların nəticələrinin qiymətləndiriləcəyi zaman... Axirətə inanmaq İslamın iman şərtlərindən biridir. Cənnət və cəhənnəm axirət həyatının məkanıdır". (İslam ensiklopediyası)

Axirətə inanmaq məsələsindən İslam qaynaqlarında bəhs olunur, müsəlmanların diqqətinə çatdırılır. Belə ki, Axirət kəlməsi Qurani-Kərimdə 110 yerdə adı çəkilməkdədir. Ayrılıqda "əl-yəvmül-axir" (son gün), "ən-nəşətül-axira" (son yaradılmış) və yaxud "yəvmül-qiyamə" (qiyamət günü), "yəvmüd-din" (cəza və mükafat günü), "yəvmül-hisab" (hesab günü), "yəvmül-hasrə" (peşmanlıq günü) bunlardan bəzi bəridir.

Axirət dünya həyatının ardıdır. Dünya həyatına bənzəyir, lakin fərqli həyatdan, müxtəlif mərhələlərdən və hallardan ibarətdir. Qurani-Kərimdə Hz. Nuh, Hz. İbrahim, Hz. Yusif, Hz. Musa, Hz. İsa və digər peyğəmbərlərin axirət inancları, xüsusilə vurğulanmışdır. Məsələn, Nisa surəsinin 136-cı ayəsində, **"Kim Allaha, mələklərinə, kitablarına peyğəmbərlərinə və axirət gününə inanmazsa, uzaq bir zəlalətə düşmüşdür"** bildirilir. Qurani-Kərimin ifadəbəri nə görə dünya həyatı bir oyun və əyləncə, axirət həyatı isə ölümsüz aləm (darul-qərar) və Allahla görüşmə yeridir. (Ənkəbut 29/64, Mömin 40/39; Hədid 57/20)

Dünya həyatının fani, axirət həyatının isə əbədi olması və qiyamətin nə zaman qopacağı, axirətin necə başlayıb davam edəcəyi isə yalnız müqəddəs kitab və hədis işığında öyrənilə bilər. Qu -

rani-Kərimdə Mülk surəsinin 2-ci ayə - sində bildirilir: **"O ki, hansınızın əməlcə daha yaxşı olduğunu sınamaq üçün ölümü və həyatı yaratdı. Axı, O, qüdrətlidir, bağışlayandır".** Hər bir insan bu həyatda imtahan olunur. Bəziləri varlı və ya kasıb, məmur və ya işsiz, sağlam və ya xəstə olaraq sınanır. Sonda bütün insanlar itaətkar və ya asi, adil yaxud zalım, yaxşı, ya da pis olaraq Allahın hüzuruna çıxarılacaq. Dünya həyatındakı haqsızlıqların, həddi aş - malarının cəzasının verilməsi və edi - lən yaxşılıqların mükafatlandırılması üçün divan qurulacaq. Bütün insanlar bir-biriləri ilə hesablaşacaq, haqlı və ya haqsız ayırd ediləcək, əməlinə görə qarşılıq veriləcək. Qurani-Kərimdə də, ilahi ədalət divanının qurulacağı və insanların dünyada işlədiklərinin qar - şılığını görəcəkləri ilə bağlı ifadələrə rast gəlirik. Əl-Casiyə surəsinin 21-22-ci ayəsində buyurulur: **"Yoxsa pis əməllər edənlər güman etdilər ki, onları, iman gətirib yaxşı işlər görən - lərlə bir tutacağıq, onların həyatları və ölümləri eyni olacaq? Onlar necə də pis mühakimə yürüdürlər! Allah göyləri və yeri haqq-ədalətlə yarat- mışdır ki, hər kəs qazandığına görə əvəzini alsın. Və onlara heç bir haq- sızlıq edilməz".** Əl-Casiyə surəsi 26-28-ci ayədə **"De: "Allah sizi dirildir, sonra sizi öldürür. Sonra sizi qiyamət günü bir yerə yığacaq. Ona (qiyamə- tə) heç bir şəkk-şübhə yoxdur, lakin insanlar çoxu bilməz! Göylərin və yerin hakimiyyəti Allahındır. Qiya - mət qopacağı gün isə, o gün, yalan danışanlar ziyana uğrayacaqlar! Hər ümməti diz üstə çökmüş və ziyyətdə görəcəksən. Hər ümmət öz (əməl) dəftərinə tərəf çağırılacaqdır. Bu gün etdiyiniz əməllərin əvəzi sizə verilə - cəkdir!"**

Axirət həyatı qeybə məxsus olan bir mövzu olduğu üçün ağıl və müşahidə ilə bilgi sahibi oluna biləcək bir sahə deyil. Bu mövzuda Quran və hədislərə söykənərək danışmalıyıq. Günümüzdə də başda Xristiyanlıq və Yəhudilik ol- maqla, yaşayan dinlərin hamısında axi - rət inancı vardır. Bu da insanlığın axi- rətin varlığı mövzusunda ortaq bir fik - rə gəldiyini bildirir.

Möminin axirətinin xeyirli olması bu dünyada qazandıqları əməllərinin bəhrəsindən keçir. Allah Təala bizləri xeyir əməl sahiblərindən, əbədi sə - adət dünyası olan axirət dünyamızı haqq etmişlərdən qərar versin, Amin!

Axirət dünya həyatının ardıdır. Dünya həyatına bənzəyir, lakin fərqli həyatdan, müxtəlif mərhələlərdən və hal- lardan ibarətdir. Qurani-Kərimin ifadələrinə görə dünya həyatı bir oyun və əyləncə, axirət həyatı isə ölümsüz aləm (darul-qərar) və Allahla görüşmə yeridir.

Fəlsəfə doktoru Qəmər CAVADLI

Sovet hakimiyyəti illərində Azərbaycanda ateizm təbliğatı-2

Azərbaycanda ateizm təbliğatı xalqın əsrlərlə qazandığı milli-mənəvi dəyərlərin yox olmasına yönəldilir, minillik adət-ənənələrə "gerilik", "mövhumat", "feodalizm qalığı" damğası vuraraq kütlə şüuruna psixoloji təzyiq edilirdi. Bununla belə dini təşkilatlara dini iclaslar, mərasimlər təşkil etmək, qiraətxana və kitabxana açmaq, habelə dini təlim edən dərnəklər yaratmaq qadağan idi.

Fanatizm ilə mübarizədə inqilabdan qabaqkı maarifçilik hərəkatının nailiyyətləri sovetlərin ateizm siyasətindən daha səmərəli idi. Bunu yalnız bir şəkildə aydınlaşdırmaq olar: onların məqsədləri fərqli olmuşdur. Azərbaycan maarifçilərinin İslamı müsəlmanların ictimai və məişət həyatından bütövlükdə çıxarmaq niyyətləri olmamışdır. Burada yalnız dinin inkişaf etməkdə olan sekulyar cəmiyyətdə yerinin və rolunun təbii müəyyənləşdirilməsi prosesi gedirdi və bu proses fanatizmin, onun qorunmasında maraqlı olanların kəskin tənqidi ilə müşayiət olunurdu. Uğur və naliyyətlər tədricən cəmiyyətin ümumi və hərtərəfli inkişafı ilə paralelləşirdi. Bu uğurlar o qədər ciddi idi ki, hətta bir sıra mütərəqqi din xadimlərini də hərəkat ətrafında birləşdirə bilmişdi.

Sovetlər isə bu hərəkatın avanqardı olan liberal-demokrat ziyalıları məhv etməklə və onun yerinə süni yollarla, sinfi seçmələr vasitəsilə, keyfiyyətin kəmiyyətə qurban verilməsi hesabına formalaşdırılmış yeni zümrəni gətirməklə Azərbaycan cəmiyyətinin təbii islahatlar inkişafının qarşısını alırdılar. Hətta M. Bağırov çaşqınlıqla partiya kolleqalarına müraciət edərək soruşurdu: "Niyə bizim məktəblər fanatizmlə mübarizədə bacarıqsızdır?" və həqiqi stalinist kimi bir nəticəyə gəlirdi: "Əgər biologiya elmi ilə, darvinizmlə tanış olan hakim özünü dindar kimi qələmə verirsə, o, bizi şüurlu surətdə aldadır. Əslində, o, dindar deyil, o sadəcə düşməndir, o bizə, bizim quruluşumuza müxalifətdə olduğu üçün özünü dindar adlandırır" (85, 84). Bu günün prizmasından baxdıqda M. Bağırovun görmə diyi və ya görmək istəmədiyi bir məqam nəzərə çarpır – sovet ziyalı zümrəsi dini biliklər almaq imkanından məhrum edilməklə keyfiyyət etibarı ilə

sovetləşmə yə qədərki intibah dövrü intelligensiyasının səviyyəsinə çata bilməmişdir.

Sosializmə keçid və "mədəni inqilab" dövründə İslam dininə qarşı bütün cəbhə boyu hücum ardıcıl və düşünülmüş şəkildə davam etmişdir. "Fəhlə sinfinin birinci düşməni dindir" – şüarı və tələbi yerli partiya, komsomol və ictimai təşkilatların qarşısında duran ən mühüm məsələlərdən biri idi. Dövrü mətbuatın, jurnal və qəzetlərin, həmçinin broşür tipli kitabların dinə qarşı aparılan mübarizədə rolu böyük idi. Sovet təbliğat və təşviqatı bu sahəni xüsusi diqqətdə saxlayırdı. Bir sıra tarixçilərin araş dırmasına əsasən demək olar ki, "mədəni inqilab" dövründə ən güclü zərbəyə məruz qalan sahələrdən biri İslam dini olmuşdur.

1936-cı ildə SSRİ-də sosializmin tam qələbə çaldığı elan edildi. Sosializmin tam qələbəsi həmin ilin 5 dekabr tarixli "SSRİ Konstitusiyası"nda təsbit edildi. Və həmin ildə bu "tarixi qələbənin" eyforiyasından təsirlənən bolşeviklər Bakıda Bibiheybət məscid ziyarətgahını, müqəddəs Aleksandr kilsəsini və alman lüteran kirxasını yerlə yeksan etdilər, bir sıra məscidləri bağladılar və hətta Təzəpir məscidini bir müddət çay fabrikinə (daha sonralar mağaza anbarı və yay kinoteatrı da olmuşdur) çevirdilər.

Ateizm oktyabr inqilabının yetirməsi, elmi ateizm isə müharibədən sonra SSRİ ərazisində bütün din və dini görüşlərə qarşı yönəldilmiş marksizm-leninizm ideologiyasının tərkib hissəsi idi. "Ateizm" ifadəsinə "elm" sözü də əlavə etməklə sovet dövləti dinə qarşı mübarizəni guya elmi əsaslarla – elmi ateizm mövqeyindən aparılması məntiqini irəli sürürdü.

Keçən əsrin 60-cı illərindən başlayaraq ateizm bir fənn kimi ali məktəblərdə tədris olunmağa başladı. Bu fənnin tədrisi üçün mütəxəssislər hazırlanmasına xüsusi diqqət verilirdi. 1966-cı ildə Azərbaycan Dövlət Universitetində Elmi ateizm kafedrası təşkil edildi. Moskvada və İttifaqın başqa yerlərində elmi ateizm barədə yazılan kitablar sürətlə Azərbaycan dilinə tərcümə edilərək kütləvi tirajla nəşr olundu.

Azərbaycanda ateizm təbliğatı xalqın əsrlərlə qazandığı milli-mənəvi dəyərlərin yox olmasına yönəldilir, minillik adət-ənənələrə "gerilik", "mövhumat", "feodalizm qalığı" damğası vuraraq kütlə şüuruna psixoloji təzyiq edilirdi.

Bununla belə dini təşkilatlara dini iclaslar, mərasimlər təşkil etmək, qiraətxana və kitabxana açmaq, habelə dini təlim edən dərnəklər yaratmaq qadağan idi. Sovet qanunları əslində dini etiqadına görə vətəndaşları sıxışdırmağı, dindarların etiqad azadlığı hüququnu pozmağı qadağan etsə də, bu qanunlar addımbaşı dövlətin özü tərəfindən pozulurdu. Təhsil müəssisələrində dini təlimin tədrisinə icazə verilmirdi, əksinə ateizmin təbliğ və tədrisinə xüsusi diqqət ayrılırdı. Kütləvi informasiya vasitələri sovet ideoloji maşınına tam şəkildə tabe edilmişdi. Sovet dövləti gənc nəslin elmi-materialist dünyagörüşü və kommunist idealları ruhunda tərbiyə olunmasını daxili siyasətinin əsas vəzifəsi kimi müəyyənləşdirmişdi. Beləcə, əslində bir sıra dekret və qanunlarla sözdə dini etiqad azadlıqlığının təminatçısı rolunda çıxış edən, hər hansı bir dinə sitayiş etmək və ya heç bir dinə sitayiş etməmək məsələsinin vətəndaşın öz işi olduğunu göstərən SSRİ dövləti ateizmi dövlət siyasəti səviyyəsində təbliğ edir, vətəndaşların hüquqlarını pozaraq onları sırf ateist ruhunda tərbiyə etməyə çalışırdı. Əvvələr üstüörtülü şəkildə aparılan bu siyasət, sonralar daha açıq müstəviyə keçmişdi.

Əslində, İslam əleyhinə aparılan uzun illik siyasət müəyyən nəticələr versə də, sovet hakimiyyətinin tənəzzülünün ilk əlamətləri görünən kimi İslam əks-hücum mövqeyinə keçməyə hazırlandı. Kütlə şüurundakı devrim özünün kulminasiya saatını gözləyirdi...

Mətanət KƏRİMOVA

İNSAN HƏYATININ SON MƏRHƏLƏSİ – "AXİRƏT"

İnsan dünyada yaşadığı müddətdə heç zaman ölümü və axirəti unutmamalıdır. Hər zaman çalışmalıdır ki, dünyada etdiyi hərəkətlər axirətdə onun əleyhinə çevrilməsin. Əks halda, yəni dünyaya aludə olduqda, insan gələcəyi gözardına vurur, həyatın yalnız bu dünya ilə məhdudlaşdığını düşünür, heç bir ölçüyə və qanuna sığmayacaq tərzdə dünyaya bağlanır.

İnsan axirət üçün azuqəni, yəni savabı bu dünyada qazanır. Əgər dünya həyatı olmasaydı, insanların savab qazanmaq və behişt əldə etmək imkanı da olmazdı. Bütün savab əməllər bu dünyada edilir, ölümdən sonra heç bir savaba nail olmaq mümkün deyil. Çünki dünya – savab yeri, axirət isə hesab yeridir. Bu dünyada halal ruzi qazanan, özünün və ailəsinin tam ehtiyacsız halda yaşayışını təmin edən, imkanı çərçivəsində fəqirlərə yardım göstərən, əli, dili və ürəyi ilə haqq-ədaləti qoruyan, insanları yaxşı əməllərə çağırıb pis işlərdən çəkindirən, Allaha ibadət edib öhdəsindəki dini vəzifələri layiqincə yerinə yetirən şəxs, əlbəttə ki, savab qazanar. Bizi yaradan Allah, bir yaradıcı kimi Öz yaratdıqlarını çox sevir. Allahın bizə olan sevgisi, ananın öz balasına olan sevgisindən 70 dəfə daha çoxdur. Allah bizim üçün həm bu dünyanı yaradıb, həm də Axirət həyatını və, ələlxüsus, Cənnət baxçalarını yaradıb və bizi bir müddət yer üzünə göndərərək yenidən Cənnətə dəvət edir, Cənnəti qazandırmaq, Cənnətə salmaq istəyir. İnsan daima düşünməlidir ki, haradan gəlib haraya gedəcək, necə gəlib necə gedəcək? Yaradılış ilə son nəticə arasındakı məsafə hansı mərhələlərdən keçir? İnsanın ölümün-

*Əsil Axirət həyatı – ölümdən, sonra qəbir alə mindən, daha sonra Qiyam (təzədən dirilib qalxma) və mühakimə (haqq-hesaba çəkilmə) günündən sonra başlayacaqdır. Kainatın Rəbbi də, bu həqiqəti bizə xəbər verərək, bunun qaçınılmaz bir hal olduğunu bildirir: «**De ki: Qaçdığınız ölüm sizi mütləq yaxalayacaqdır. Sonra siz gizlini də, aşkarı da bilən Allahın hüzuruna qaytarılacaqsınız. O da sizə nələr etdiyinizi xəbər verəcəkdir!**» (Cümə, 8).*

dən sonra hansı proseslər baş verir? Məgər həyat o qədər mənasızdır ki, ölümdən sonra heç bir nəticə yoxdur? Axı belə olsa idi, onda həyatın heç bir mənası olmazdı, yaxşılığın əhəmiyyəti, pisliyin isə ziyanı olmazdı. Lakin insan əbəs yerə yaranmayıb və mütləq gəldiyi yerə qayıdacaqdır. Bəşəriyyətin boş və mənasız olaraq yaradılma düşüncəsi yanlış bir fikirdir. «**Yoxsa sizi əbəs yerə yaratdığımızı və (qiyamət günü dirilib haqq-hesab üçün) hüzurumuza qaytarılmayacağınızımı güman (zənn) edirsiniz?!**» (Mö minlər: 115)

Ümumiyyətlə, insan yaradılışın məqsəd bu dünyada əbədiyyən qalmaq deyil. İnsanın yaradılışından məqsəd – bir müddət bu dünyada sakin olduqdan sonra başqa aləmə, başqa mərhələyə köçmə sidir. İnsanlar yaradılaraq bu dünyada, yəni yer üzündə, sıra ilə doğulub yaşayaraq vəfat edib, yerlərini digərlərinə verirlər. Dünya həyatının da onlar üçün maraqsız olmaması üçün Allah yer üzünü müxtəlif şeylərlə bəzədib və insanların qəlblərinə tələbat yerləşdirib, sadəcə olaraq bu tələbatı necə həll edəcəkləri, hansı yolla həyata keçirəcəkləri barədə onları sorğu suala tutacaqdır. Çünki Allah Təala bu tələbatların həm halal həllini göstərib, həm də ziyan olan yolları da qadağan edərək haram elan edib. Beləliklə, bu dünya – insanların bir-birinin ardınca sıra ilə yaşadıqları bir mərhələdir. Axirət – lüğəti mənasına görə, nəyinsə axırı və ya ümumiyyətlə «axırıncı», «sonuncu» deməkdir. İslam elminin «istilasına» (şəriət terminologiyasına) görə isə, axirət - «insan varlığının və həyatının sonuncu və daimi olan mərhələsi» deməkdir. Bu – axirət həyatıdır. Əsil Axirət həyatı – ölümdən, sonra qəbir alə mindən, daha sonra Qiyam (təzə dən dirilib qalxma) və mühakimə (haqq-hesaba çəkilmə) gü nündən sonra başlayacaqdır. Kainatın Rəbbi də, bu həqiqəti bizə xəbər verərək, bunun qaçınılmaz bir hal olduğunu bildirir: «**De ki: Qaçdığınız ölüm sizi mütləq yaxalayacaqdır. Sonra siz gizlini də, aşkarı da bilən Allahın hüzuruna qaytarılacaqsınız. O da sizə nələr etdiyinizi xəbər verəcəkdir!**» (Cümə, 8). Bir mərhələ olaraq, axirət - yenidən öz Rəbbinə qayıdış, dünya mərhələsində nələr etdiyinə görə sual-cavab edilmə və həmin andan etibarən, çox uzun müddətli bir həyat sürməsinin başlanmasıdır. Bu həyatı nə səviyyədə yaşayacağı, həmin sual-cavabın nəticələrindən asılıdır. Belə liklə də, diqqət mərkəzində olan əsas amil – sorğu-sual edilən an və onun nəticələridir.

Qiyamət günü bütün insanların həqiqəti açıqca görəcəkləri gündür. O gün inkar edən bir insan qarşılaşacağına inanmadığı, ya da həyatı boyunca düşünməkdən qaçdığı axirət həqiqəti ilə qarşıqarşıya qalacaqdır. Dünyada iman etməmə nin nəticəsini öz gözləri ilə görəcək, geri dönüşü istəyəcək, ancaq bu istəyi qəbul edilməyəcəkdir. Həyatı boyunca nəfsinə görə hərəkət etdiyi üçün və Allahın rizasını düşünmədiyi üçün sonsuz əzab ilə qarşılaşacaq, bundan böyük peşmançılıq duyacaqdır.

Ey qullarına qarşı şəfqətli və mərhəmətli olan Rəbbimiz! Bizlərə müsəlman kimi yaşamağı və müsəlman kimi ölməyi nəsib et! Ayaqlarımızı dünyada Sırati Mütəqim üzərində, Axirətdə isə Sırat Körpüsü üzərində sabit et! Qəbirlərimizi cəhənnəm çuxurlarından bir çuxura deyil, cənnət bağçalarından bir bağçaya çevir. Amin!

HƏYAT və ÖLÜM

Dükanı şəhərin çıxış qapısında olan bir baqqal vardı. Qapıdan nə zaman bir cənazə çıxsa o yanında saxladığı cama bir meyvə çəyirdəyi atar hər ayın başında onları sayaraq:

–"Bu ay bu qədər adam cama düşdü" –deyərdi. Bir gün o da öldü. Xeyli vaxt keçmişdi ki, ölümündən xəbərsiz bir dostu onu ziyarətə gəldi. Dostunu görməyən müsafir onu qonşulardan sordu:

–"Burada oturan baqqal hanı?"

Dedilər ki:

–"O da cama düşdü!..."

Bu da bu fani aləmə gələn yolçuların hekayəsi... Hər kəs və hər şey haqqında qalan budur: biri varmış, biri yoxmuş...

Yunis Əmrə necə gözəl söyləmişdir:

Ana bətnindən gəldik bazara,
Bir kəfən alıb döndük məzara!...

İnsan həyatın axarında yaşamaq sevinci ilə ölümdən tükü ürpənən iki dəhşətli əksliyin arasında çalxalanır. Daimi axarda olan həyat və ölümün həqiqi mənaları dərk edilmədən yaradılmanın sirri və hikməti ilə insanın həqiqi mahiyyəti də qavranıla bilməz.

Salim bir mühakimə sahibi düşünməzmi ki, kainatda hər şey bircə çəyirdə yin çatlamasından bahar şənliyinə, doğumlardan ölümlərə və mikroaləmdən makroaləmə, zərrələrdən kürrələrə qədər layiqincə qavranması imkansız bir nizam-intizam ilə təqdir edilmiş bir ahəng içində ötüb-gedir.

Olsun, bu ahəngin və bu nizamın sənətkarı və Xaliqi kimdir? Kainatda insan idrakını aciz qoyan bu mükəmməllik hikmət və ibrətlər mücəsməsi deyilmi? Bu sualların ən mükəmməl və ən gözəl şəkildə cavabı Qurani-Kərimdədir. Allah Təala buyurur:

–**"Biz göyləri, yeri və onların arasında olanları oyun-oyuncaq (əyləncə) yaratmadıq!"**(əd-Duhan, 38)

–**"Yoxsa sizi əbəs yerə yaratdığımızı və (qiyamət günü dirilib haqq-hesab üçün) hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?"** (Əl-Müminun, 115)

–**"Məgər insan elə güman edir ki, o, başlı-başına (cəzasız) buraxılacaq?!"**(əl-Qiyamə, 36)

İnsanın yaradılmasındakı hikmət öz istedad və iqtidarı nisbətində Haqq Təalanı bilə bilmək, bu biliyi irfan (zehni kamillik) ilə bəzəyərək əməli-saleh ilə Haqqa hörmət göstərməkdir. Biz buna qısaca qulluq deyirik. Bu qulluq keyfiyyətinin hədəfi də qəlbi təsfiyə (saflaşdırma) və nəfsi təzkiyə (hər cür mənfilikdən uzaqlaşdırma) edə-edə Allaha qovuşa bilməkdir. Vasili-illəllah

ola bilməkdir. Bu da nübüvvətdən peyğəmbərlikdən, nəbilikdən) sonra ən uca bir dərəcə ilə Rəbbə yetişməyi ifadə edən vəlilikdə kamal qazanır.

Vəlilik, nəfsani ölçülərin fövqünə qalxmaq mənliyin əskəri səviyyəyə endirilərək mənən Rəbbə qovuşmasıdır ki, bu yüksək dərəcəyə məqam etibarı ilə fana-fillah deyilir. Bu da bir axan suyun dənizə çatdıqdan sonra öz şəxsiyyətini itirib dənizdə yox olması və ya yediklərimizin bədənimizə daxil olduqdan sonra xaricdə ikən mənsub olduğu mahiyyətlərini itirməsi kimidir.

Bu məqama çatdıqdan sonra gələn ölüm həqiqi mənada bir vüslati-ilahiyyədir.

"Ölümdən əvvəl ölün" bəyanı bu halın ən gözəl ifadəsidir. Həzrət Mövlana (qüddisə sirruh):

"Dirilmək istəyirsinizsə, ölün!" –buyurur ki, nəzərdə tutduğu mənəvi ölümdür. Baqi həyatda doğuş başqa bir aləmdə dirilmədir. Həzrət Peyğəmbər (s.ə.s.) Tövhid və mərifətullah nəşəsi içində nəfsini yox etməyi bacarıb bu cür ölənləri müjdələyir və təltif edir.

Bu səbəbdəndir ki, Həzrət Mövlana fani aləmdən azad olaraq baqi həyatda doğulmağa "şəbi-arus" (düyün gecəsi) demiş dir. O, beytlərində belə buyurur:

"Öldüyün gün tabutunu ki, qaldırırlar, məndə bu dünya dərdi var sanma!"

"Mənim üçün ağlama, yazıq, "vay-vay!" –demə! Məni torpağa tapşıranda da "vida-vida!" –(ayrılıq-ayrılıq!) demə!"

Məzar elə bir pərdədir ki, onun arxasında cənnət rahatlığı vardır!"

"(Bilin ki, mən), ölü idim, dirildim… Göz yaşı idim, təbəssüm oldum… Eşq dəryasına baş vurdum, axır ki, əbədi olanı bir dövlətə çatdım…"

Bu ifadələr bir Haqq aşiqinin bir vüsal arzusu içində söylədiyi məhəbbət ifadə bəri və bir mənada da ayrılıq yeri olan bu fani aləmdən vaz keçməkdir.

Şübhəsiz ki, istisnasız olaraq hər bir ömür səyyahının başına gələcək ölüm idrak sahibi olan bütün varlıqların açmağa məcbur edildiyi bir müəmmadır.

Ənbiya surəsinin 35-ci ayəsində:

–**"Hər bir kəs (hər bir canlı) ölümü dadacaqdır. (Dözüb-dözməyəcəyinizi, şükür edəcəyinizi, yaxud nankor olacağınızı) yoxlamaq məqsədilə Biz sizi şər və xeyirlə (xəstəlik, yoxsulluq, ehtiyac və sağlamlıq, var-dövlət və cah-cəlalla) imtahana çəkərik. Və siz (qiyamət günü əməllərinizin əvəzini almaq üçün) ancaq Bizim hüzurumuza qaytarılacaqsınız!"**(Ənbiya, 35) buyurulur.

Ölümün bilinən bir dili yoxdur. Lakin o dərin bir sükuta nə qədər qorxunc mənalar dəfn etmişdir. Necə ki, Həzrət Peyğəmbər (s.ə.s.) buyurur:

"Sizə iki öyrədən qoydum. Biri susar, o biri danışar. Susan nəsihətçi ölüm, danışan isə Qurani-Kərimdir". (Fəzaili Amal, s. 383).

Ölümlər səssiz və sözsüz dərslərdir ki, duyan, həssas adamlara ən səlahiyyətli ağızlardan da mükəmməl ibrət, aqibət və həqiqət bəyan edər.

Ölümün qorxunc ağırlığını sözlərin zəif çiyinləri daşıya bilməz! Ölüm qarşısında bütün iqtidarlar sona çatar və çatır da.

Ötəri sevdalar, arzular, fani zövqü-səfalar və insanları çıxılmaz dolanbaclar-

Ölümün bilinən bir dili yoxdur. Lakin o dərin bir sükuta nə qədər qorxunc mənalar dəfn etmişdir. Necə ki, Həzrət Peyğəmbər (s.ə.s.) buyurur: ***"Sizə iki öyrədən qoydum. Biri susar, o biri danışar. Susan nəsihətçi ölüm, danışan isə Qurani-Kərimdir". (Fəzaili Amal, s. 383).***

Şair, bir könül əhlinin dünyadakı asudə həyatının qəbir aləmində də davam edəcəyini necə gözəl ifadə edir:

Ölüm asudə bahar ölkəsidir yerliyerində
Könlü hər yerdə buhurdan eyləyib tüstülədər
Sərin sərvlərin altında qalan qəbirdə
Hər səhər bir gül açar, hər gecə bir bülbül ötər.

da pərişan edən xarab fəlsəfələr ölümün çarşısında solğun payız yarpaqlarından da dəhşətli bir sürünmə ədası içində aciz qalırlar!

Qəbiristanlar fani həyatını başa vuran ata-ana, uşaq, sevgili, qohum-əqraba, dost və tanışların son mənzili ilə doludur. Dünya həyatı istər sarayda, istərsə də günləri saymaqla yaşansın, bütün yollar və döngələrin gəlib çıxdığı yerqə birdir. Ondan qaçıb qurtarması mümkün olan nə bir zaman, vardır nə də bir məkan.

Hədisi-şərifdə:

"Bütün dünyəvi zövqləri bıçaq kimi kəsəni (yəni ölümü) çoxlu-çoxlu xatırlayın". (Tirmizi, Zühd, 4; Nəsai, Cənaiz, 3) buyurulur.

Qəlb gözü açıq olan Əbu-Dərda (r.a.) bir qəbir daşının yanında durub:

–"Ey qəbir! Çölün nə qədər səssiz, lakin için nə qədər dəhşətli, qorxuluqlarla doludur!..." demiş və hönkür-hönkür ağlamışdır.

Bir səhabi, Rəsulallahdan (s.ə.s.):

–"Ağıllı insan kimdir, ya Rəsulallah?" –deyə soruşdu.

Həzrət Peyğəmbər (s.ə.s.):

–*"Ölümü çox düşünən və ona hazırlığını tamamlamaqla məşğul olan kəslərdir. Məhz onlar zəkalı insanlardır..."* (İbni-Macə, Zühd, 31) buyurdu.

Nəfsinə qul olan qafil insanların dünyadakı evləri, sanki yaşayan ölülərin ailə qəbiristanıdır. Düşünməzlər ki, ölüm nə gecikir, nə də tələsir. Ancaq və ancaq vaxtında gəlir. Ölümdən qaçmaq istə yənlərə Qurani-Kərimdə belə buyurulur:

–**"Harada olursunuz olun, hətta uca (möhkəm) qalalar içərisində olsanız belə, ölüm sizi haqlayacaq. (Ya Rəsulum!) Onlara (yəhudilərə və münafiqlə rə) bir xeyir yetişdikdə: "Bu Allahdandır!" - deyərlər, bir pislik üz verdikdə isə: "Bu səndəndir!" - söyləyərlər. (Onlara) de: "Hamısı Allahdandır". Bu camaata nə olub ki, az qala söz də anlamır!"** (ən-Nisa, 78)

İnsan öz əcdadi varlığı ilə birlikdə bütün bir kainatın yaradılma hikmətinə yetişə bilməzsə, alçaqlıq onu udar. Dünyaya gəlmək və dünyadan getməyi dərk edib fikirləşməyən insan öz varlığının gerçəkliyindən belə xəbərsizdir! İnsan hikmətsiz bir macəranın təsadüfi deyildir...

Bu həqiqətə qovuşan möminlər üçün bəşəri qismətlərin ən böyüyü olan ilahi vüslatın ilk mərhələsidir.

Ruh dünyanın aldadıcılığından uzaqlaşma və sərablara (ilğımlara, cilvələnmələrə) aldanmamaq nəticəsində elə bir səviyyə qazanır ki, ancaq maddi və mənəvi zəfərlərə onunla yetişilir. Həzrət Peyğəmbər (s.ə.s.) bir Hədisi-şərifində:

"Həqiqi mücahid nəfsinə qarşı cihad edəndir" (Tirmizi, Fəzailül-Cihad, 2), buyurmuşdur.

Müttəqi (Allahdan qorxan) və zahid (dünyadan əl çəkib ibadətlə məşğul olan) mömin dərin bir həyat düşüncəsi, ruhi əxlaq şüuru içində ağlını Haqqa, qəlbini xeyirə, əzalarını gözəl və faydalı işlərə istiqamətləndirir ki, bu hallara "əməli-salehlər" (saleh əməllər) sahib olur.

Şair, bir könül əhlinin dünyadakı asudə həyatının qəbir aləmində də davam edəcəyini necə gözəl ifadə edir:

Ölüm asudə bahar ölkəsidir yerli-yerində
Könlü hər yerdə buhurdan eyləyib tüstülədər
Sərin sərvlərin altında qalan qəbirdə
Hər səhər bir gül açar, hər gecə bir bülbül ötər.

Bir mömin əməli-salehlər içində Haqq Təalanın rizasına nail olub Haqda fani bş dkdə eşqi ilə baqi (əbədiyyət dünyasında) qalma bəxtiyarlığına yetişir.

Səadətli bir ölüm, imam və Quran nurları könül feyziyablığı altında keçən bir həyatın mükafatıdır. Dünyanı çirkin əməllərlə bir rəzillik meydanına çevirmək ən acınacaqlı bir aldanışdır! Lakin gözlərdən axan nədamət (peşimanlıq) gilələri ilə ğufran (Allahın əfvi) iqliminə yetişmək Ğaffar olan Rəbbin insana etdiyi uca bir ikramdır!

Ümumbəşəri şüur ilə layiqincə qavranmasına imkan tapılmayan ölüm həqiqətinə qovuşa bilmək peyğəmbərlər və övliyaların nümunəvi həyatından və onların könül iqlimlərindən pay almaqla mümkündür. Əks halda ölüm müdhiş bir fəlakətin ilk və acı bir təzahürü olur!... Çünki bütün əksliklər kimi ölümün də bəşəri idrak və vəsfə görə bir-birinə əks iki təzahür və özünü göstərmə şəkli vardır.

Ölüm məsələsi, peyğəmbərlərin irşadlarına baxmayaraq qədimdən bəri bəşəriyyəti çox məşğul etmişdir. Zehinlərdə zəhərli bir ilan kimi qıvrılan, vaxtaşırı izaç halqaları ilə qımıldanan bu dəhşətli həndikapın çoxlu nəfsani ifadələrlə susdurulması istənmişdir.

Hamını həyat mövzusunda daha yüksək və alovlu bir girdab halında saracaq olan ölüm, istisnasız olaraq başlara çökəcək ən çətin bir istiqbal əzabı, müsibəti və ya rəhmətidir. Bəşər təfəkkürü ilə layiqincə qavranmasına imkan tapılmayan bu istiqbal düyününü açə bilmək nəfs əngəlini aşaraq vəhyin səsinə qulaq asıb peyğəmbərlərin və övliyaların könül iqlimlərinin eşq, vəcd və istiğrakından qismət və feyriyablıq ala bilməklə əldə edilir.

Zaman şəridindən (ölçüsündən) düşən hər anın bizi həqiqət üfüqlərinə yaxınlaşdırmasını Ayəti-kərimə necə gözəl ifadə edir:

–**"Hər kəsə uzun ömür versək, onu xilqətcə dəyişib tərsinə çevirərik, başqa şəklə salarıq (qüvvəsini alar, gözünün nurunu aparar, hafizəsini zəiflə db bildiklərini unutdurar, özünü də uşaq kimi edərik). Məgər (kafirlər bütün bunları gördükdən sonra Allahın hər şeyə qadir olduğunu) dərk etməzlərmi?"** (Yasin, 68).

Ya İlahi! Həyatımızı və ölümümüzü saleh qullarına lütf etdiyin bərəkət, nemət, ülvi gözəlliklər və Sənə vüslat ilə müzəyyən və mükərrəm qıl!...

Amin!...

Mədinə Uçkun

Hər insanın keçəcəyi qapı

Ölüm hər bir insanın qorxduğu, üzüzə gəlməkdən belə geri durduğu bir həqiqətdir. Bəzi insanlar ölümü insanın yoxluğu sanarlar. Amma ölüm dünya həyatı ilə axirət həyatı arasında keçid və yaxud da qapıdır.

Qapının arxasında, yəni axirət həyatımızda, cənnət və cəhənnəmdə olmağımız da Allahın bu dünyadakı davranışlarımızı bəyənib bəyənməməsinə bağlıdır.

Ölüm vaxtın bitməsidir. Ölüm dərs bitdiyində zəngin çalması və çıxış qapısının açılması kimidir. Allah dünyada hər kəsə bir vaxt vermişdir. Kiminin vaxtı 20 ildə, kiminki də 100 ildə bitər. Necə ki, dünyadakı imtahan başlanğıcı olan doğumunuza Allah qərar verir siz deyil, vaxtın bitməsinə də Allah qərar verir. Nə zaman ölə əyimizi Allahdan başqası bilməz.

Ölüm imanlı insanlar üçün bir sevinc vəsilə sidir. Vaxtı bitib imtahanda üzü ağ çıxan insanın arxasından hüzünlənmək çox mənasızdır. Ölən insan çox yaxın qohumumuz, anamız, atamız və çox sevdiyimiz biri də ola bilər. Ancaq iman edən bir insan ölümün bir ayrılıq olmadığını, sadəcə ölən insanın bu dünyadakı vaxtının bitdiyini düşünməli və ona görə davranmalıdır. Ölənlərin arxasından ağlayırıq, hüzünlənirik, öləcəyimizi qəbul etmək istəmirik. Əslində, ağlayan hər insan özü üçün göz yaşı axıdır. O torpağa qoyulan bir gün onu da olacağını bilərək yaşayır və qorxur.

Allah dilədiyi zaman bizim canımızı alabilir. Ona görə də vaxtımız bitənə qədər çalışıb Allahın sevgisini qazanmalıyıq. Unutmamalıyıq ki, ölüm bir son deyil, bir keçid qapısıdır. Sonsuza qədər davam edən əsl həyat axirət həyatıdır. Bizimdə hər an axirət həyatı üçün çalışmamız lazımdır. İmtahandakı bir insan ordan heç ayrılmayacaqmış kimi səy göstərərmi? Xeyr, sadəcə sualları cavablayıb tez çıxmaq istəyər.

Dünya həyatında da insan Allahın onun üçün hazırladığı imtahanı yaxşı bitirib Allahın rizasını və cənnəti qazanması üçün çalışmalıdır.

Həyat üçün kimsə istədiyi vaxtı, zamanı görə bilmir. İnsanın əlində olan isə sadəcə yaşadığı vaxtdır. Gələcəkdəki hər hansı bir zaman dilimi bizim yaşadığımız vaxtın sonrasına keçərsə xəyallarda qəbrə qoyulur. Ev, maşın, insan münasibətləri, yardımlaşma, dostluq və ibadətimiz bunların bir hissəsidir. Sonumuzun nə zaman nöqtələndiyini kimsə bilmir.

Həyatı da, ölümü də yaradan Allah Təalادır. Onun yaratdığı hər şeydə bir gözəllik, bir hikmət vardır. Həyatı da, ölümü də gözələşdirən şey gözəl əxlaq və əməllərdir. Əgər bunlar yoxsa nə dünyada, nə də axirətdə rahata qovuşmaq olmaz.

Hər insanın dünyadakı ən vacib işi Allahı sevmək və Allahın rizasını qazanmaq üçün çalışmaqdır. Çünki sonsuz mərhəmət sahibi olan Rəbbimiz Ona inanan bəndəbrini sevməkdə və hər an qorumaqdadır.

Əfsanə BƏKİROVA

Son nəfəsdən ibrətli bir mənzərə

Ruhu Allah Təalaya təslim edərkən sayılı nəfəslərdir son nəfəs. Ariflər sabah edərəm deyənlər həlak oldu həqiqətinin hikmətinə çatmışlar. Mütləq sabahı olmayan bir gün, hər an gələ bilər. Bu sabahı olmayan gün bizi əbədiyyətə, yəni ya Cənnətə, ya Cəhənnəmə aparar. Orada insanlar ancaq etdiyindən sorumlu tutulacaq. Bu dünyadakı kimi haqsız yerə etmədiyimiz şeylərdən deyil.

Hər an ilahi kameraların altında olduğumuzu bəzən unuduruq. Ancaq o kameralar bizi unutmur, etdiklərimizi hər saniyə qeyd edir. Ora sap ilə samanın ayrıldığı yerdir. Bu dünyada ayaqları başlarda gəzən neçə zalımların, neçə haqqı tapdalayanların özlərinin başı ayaqlar altında əzildiyi yerdir. Ora necə sultanların kölə, necə kölələrin sultan olduğu və məzlunların xəzinələrə qovuşub, necə qafil zənginlər də əbədiyyət füqərası və məşhur dilənçisi olduğu yerdir.

Orada yalnızca Haqqa sadiq qulların sədaqətlərinin və səlim qəlblərin faydası var. Bu xüsusda Mərhum Nəcib Fazilin bu xəbərdarlığı nə qədər hikmətlidir.

Hasis Sarraf, kendine bir başka kese diktir.
Mezarda geçer akçe neyse onu biriktir.

İnsan məzara girərkən ona sən nə qədər pul qazandın, hansı şəhərə, ölkəyə idarəçi seçildin, nə qədər insan səndən qorxurdu və yaxud nə qədər insan sənə hörmət qoydu deyə soruşulmayacaq. Ona pulu hansı yolla qazandın, insanlar sənə nə üçün və nə etdin də hörmət qoydular deyə soruşacaqlar. Əgər qul bu suallara doğru bir cavab versə demək ki, o, dünyada Haqq yolunda olub. Əgər yanlış cavab verərsə, demək ki, o, Haqq yolundan azanlardandır. Onlar "Ya Rəbbim bir şans daha gedim sənin istədiyin kimi dünya həyatı sürüm qazancımı ancaq Sənin yolunda xərcləyim, yetər ki, Sən şans ver!" bu zaman Fatur surəsinin 37-ci ayətindəki kimi **"Biz sizə düşünüb ibrət alacaq kimsənin düşünə bilməyi qədər ömür vermədikmi? Sizə xəbərdar edici (Peyğəmbər) gəlmədimi? Elə isə dadın əzabı! Zalımların heç bir yardımçısı yoxdur".**

"Ey Allahın o əzabından qorxanlar! İndi düşünün ki, vəfat etdiniz və dünyaya geri göndərildiniz. O həyəcan halını bir düşünün! O halda bu gün günah və məsiyyətə qətiyyən yaxınlaşmayın və mütləq bu günün bir anını boş keçirməyin. Onsuz ki, hər nəfəs daha biçilməyən bir nemətdir".

Ruhu Allah Təalaya təslim edərkən sayılı nəfəslərdir son nəfəs. Ariflər sabah edərəm deyənlər həlak oldu həqiqətinin hikmətinə çatmışlar. Mütləq sabahı olmayan bir gün, hər an gələ bilər. Bu sabahı olmayan gün bizi əbədiyyətə, yəni ya Cənnətə ya Cəhənnəmə aparar.

Pərvanə ƏFƏNDİYEVA

İslam bütün elmlərin mənbəyidir

İslam dini elmə, biliyə yüksək qiymət verən dindir. Digər elmlərdən ali olan İslam, elm almağı bütün müsəlmanlara vacib buyurur, elmə və ali məktəbə yer verir.

"Harada elm varsa, orada müsəlmanlıq var, harada elm yoxdursa, orada kafirlik var". (Hz. Məhəmməd)

Cahillik və nadanlığı qəbul etməyən İslam, fikir, elm və ağıl dinidir. Əlbəttə ki, insanların bir-birindən üstünlüyü, onların elm və imanlarına görədir. Məhz bu baxımdan müsəlmanlar qeyri-müsəlmanlardan üstündür. Müqəddəs kitabımız olan Qurani-Kərimdə deyilir ki, bilikli lərlə biliksiz heç də bir deyil. **"... De: Heç bilənlərlə bilməyənlər (alimlə cahil) eyni ola bilərmi?!..."** (39-cu surə 9-cu ayə)

Quran ayələrinə əsasən, bilirik ki, Allah Təala birinci insan olan Adəm (ə.s.)ı yaratdıqdan sonra ona elm öyrətdi. Əgər birinci insana ilk növbədə elm öyrədilməsə, deməli, yaşayışın əvvəli elmlə başlayıb.

Əsrlər boyu bəşəriyyətə misilsiz töhfələr vermiş alimlərin əksəriyyəti, məhz imanlı və müsəlman olmuşlar. Çox əfsuslar ki, bir müddət dinin və elmin nümayəndələri bir-birinə qarşı daim zidd cəbhədə olmuşlar. Ancaq bu ziddiyyətin heç bir əsası olmayıb. Çünki 779 dəfə elm deyib səslənən Quranda elm və iman kəlmələri yanaşı işlənmişdir. Bəzi əqidəpərəst cahillər dinin elmdən ayrı olmasını isbat etməyə çalışsalar da, onların yalnış fikirdə olmasını sübut edən amillər vardır.

Bir sıra inkişaf etmiş ölkələrdə "Quranda elmi nişanələr" mövzusunda keçirilən Beynəlxalq elmi konfranslar, nəhayət ki, bu fikrə son qoydu.

İslam Peyğəmbəri Hz. Məhəmməd (s.ə.s.) belə buyurmuşdur: *"İki cür ac var; onlar heç vaxt doymaz, onlardan biri elm, hikmət, o biri isə mal- dövlət, sərvət acıdır".*

İslamın rəhbəri olan Hz. Məhəmməd (s.ə.s.) elmə və maarifə hədsiz fikir verən şəxs idi. Odur ki, müharibələrdə tutulan əsirlərin arasında savadlı şəxslər olanda onları qalan əsirlərdən ayırıb, şərt kəsərdilər ki, hər biri filan qədər adama dərs verib, yazıb-oxumaq öyrədəndən sonra azad ediləcəklər. Bu üsul ilə Peyğəmbərimiz Mədinədə çox adamları savadlandırırdı. Peyğəmbərimizin vəfatından sonra bu missiyanı İmamlar davam etdirirdilər.

I İmam Hz. Əli (ə.s.) elm və hikmət dəryası olmuşdur. O, nəhv, sərf, təfsir, qiraət və s. bu kimi din elmlərinin mahir bilicisi olmuşdur. Hz. Əli (ə.s.), həmçinin Quran nöqteyi-nəzərindən riyaziyyat, fizika, coğrafiya, astronomiya, biologiya,

etika, estetika və s. bizə məlum olmayan bir çox elmləri şərh edirdi.

Bir gün Hz. Əli (ə.s.) atına minməyə hazırlaşarkən, bir ayağı yerdə, o biri ayağı üzəngidə olduğu halda yəhudi riyaziyyatçısı ona dedi: "Ey bütün elmlərə sahib olan İmam! Mənə elə bir ədəd de ki, 1-dən 10-a qədər bütün rəqəmlərə bölünsün. Hz. Əli (ə.s.) parlaq üzünü yəhudi aliminə çevirərək buyurdu: "İstədiyin ədədi tapa bilsəm, müsəlman olarsan?" "Bəli, olaram, ey İmam!"- deyə yəhudi cavab verdi.

İmam cavab verdi: "Onda həftənin günlərini vur çevrənin tam dərəcəsinə". Və o biri ayağını da üzəngiyə keçirib, atına mindi. Yəhudi 7-ni 360-a vurub 2520 ədədini aldı, sonra yenə də fikrində: 2520:1=2520, 2520:2=1260, 2520:3=840..... 2520:9=280, 2520:10=252

Heyrət və dəhşətə gələn yəhudi alimi İmama dedi:

* "Ey İmam, elmi büllurlardan duru olan! Verdiyim vədə əməl edib müsəlman oldum! İslamı qəbul edirəm". Bir müsəlmanın da artdığından xoşbəxtlik duyan Hz. Əli (ə.s.) atını çapıb gözdən itir.

Müasir dövrdə elmlərin miqdarı çox artıb, amma məna dərinliyinə görə onlar bir-birinə yaxınlaşır, bir mərkəzə tərəf gedirlər.

Hz. Məhəmməd (s.ə.s.) belə buyurmuşdur: "Elm bir nöqtədir, cahillər onu çoxaldıblar". Bu kəlamda olan "cahillər" o elmlərin əsasını qoyan alimlərdir. Müxtəlif elmlərin əsasını qoyan alimlər, hadisələrin mənbəyini və mahiyyətini bilmədikləri üçün əsl mərkəzə - İslam elminə yetişə bilməmiş və hərə öz qabiliyyəti dairəsində məşğul olduqları məsələyə aid bir elm yaratmışlar.

"Sizə xoş gələn elmlərin hamısını öyrənmək üçün ömür çox qısadır, odur ki, onların ən əhəmiyyətlisini öyrənin". (Hz. Əli)

Elm və İslam dini arasında möhkəm vəhdət var. Bunu İslam rəhbərlərinin kəlamları sübut edir.

"Ən böyük sədəqə biliyi bilməyənlər arasında yaymaqdır".

"Alim ölüb getsə də, daim diridir, cahil aranızda olsa da ölü kimidir".

"Bir saat alim yanında oturub elmi məsələni müzakirə etmək, Allah dərgahında 100 min rükət namaz qılmaqdan, 100 min təsbih deməkdən və cihad yolunda 100 min at verməkdən artıqdır".

"Üç şəxs var ki, asimanlar, yerlər, mələklər gecə-gündüz onlardan ötrü Allahdan bağışlanmaq istəyir, alimlər, tələbələr, bir də səxavətli şəxslər".

"Bilikli adamın üzünə baxmaq, onunla oturub-durmaq ibadətdir".

"Bilik əldə etməyə çalışın, bir-birinizlə bəhsə girin, çünki elm sahəsində eşitdiyiniz hər bir yeni söz yer üzərindəki qızıllardan, gümüşlərdən daha qiymətlidir".

"Hər yerin bir yolu olduğu kimi, cənnətin də yolu elmdir".

Xoşbəxtlik dini olan İslam dini bilik öyrənənlə yanaşı bilik öyrədənə də yüksək qiymət verir.

"Sizə bilik öyrədən şəxsi də böyük sayın, uca tutun; bilik öyrətdiyiniz şəxsi də". (Hz. Məhəmməd)

Gəlin, dinimizin göstərişlərinə əməl etməklə dünya və axirətdə səadətə qovuşaq.

Xoşbəxtlik dini olan İslam dini bilik öyrənənlə yanaşı bilik öyrədənə də yüksək qiymət verir.
"Sizə bilik öyrədən şəxsi də böyük sayın, uca tutun; bilik öyrətdiyiniz şəxsi də". (Hz. Məhəmməd)
"Sizə xoş gələn elmlərin hamısını öyrənmək üçün ömür çox qısadır, odur ki, onların ən əhəmiyyətlisini öyrənin". (Hz. Əli)

Xədicə ŞAHİN

HƏLƏLİK, AZƏRBAYCAN!

"Doğulduğun yer deyil, doyduğun yerdir vətənin" atalar sözünü hər kəs eşitmişdir. Bəlkə bu atalar sözü doğulduğu vətəni çox sevənlər üçün qəbul olunmayan bir sözdür. Elə yerlər vardır ki, həm insanı ilə, həm torpağı ilə insana və tərəfi kimi əzizdir. Ailəliklə bizim üçün də könlümüzdə xalqıyla, torpağıyla taxt qurmuş olan Azərbaycan ikinci bir vətən olmuşdur. Xüsusilə də, Azərbaycanda dünyaya gələn 7 yaşındakı qızım üçün artıq bura öz vətəni sayılır. "Haralısan?" sualını verdikdə, "Azərbaycanlıyam" deyə cavab verir.

İnsanın özünə belə yaxın gördüyü yerə illər sonra ziyarəti isə ömürdə dadığı ən gözəl nemətlərdən biri olduğunu düşünürəm. Bizə də bu nemət nəsib oldu, əlhamdülillah. Qazaxıstanın Çimkənt şəhərindən Bakıya doğru yola çıxdığımızda hamımızı ayrı bir həyəcan bürüdü. Havalimanında qarşılaşdığımız məmurların "biz iki dövlət bir millətik, vətənimizə xoş gəldiniz" sözləri həyəcanımızı bir qat daha artırdı. Qarşılaşdığım dost, tanış "artıq Türkiyə sənin üçün ögey vətəndir, sizin birinci vətəniniz buradır, biz də sizin qohumlarınızıq. Bundan sonra hər il gələcəksiniz" deyərək nə qədər qonaqpərvər olduqlarını göstərirdilər.

Bakı 1999-cu ildə gəldiyim Bakı deyildi, illər içində müasirləşdiyi açıqca görünürdü.

Bir yer çöhrəsini dəyişdirdiyində o yerin xalqı da dəyişər, amma Azərbaycan də yişsə də xalqın dəyişmədən eyni gözəlliyi, eyni comərdliyi sərgilədiyi nəzərdən qaçmırdı.

Türk və Azəri dostlarımızla görüş düyümüzdə isə elə həsrətlə sarılmaqları vardı ki, məhəbbətlərini ta ürəyimizdə hiss edirdik. Bəlkə də öz qohumlarım belə bizi bu cür qarşılamır. Mehriban müəllimənin dediyi kimi "doğmalar yad olur yadlar doğma". Ağlıma Peyğəmbər (s.ə.s.)-in: *"7 qrup insan vardır ki, heç bir kölgənin olmadığı qiyamət günü arşın kölgəsi altında toplanarlar. Bunlardan biri də Allah üçün bir araya gəlib Allah üçün ayrılan, bir-birini sevən kəslərdir"* hədisi gəldi. Hamımız birlikdə bu qrupa girmək duası ilə….

Azərbaycana gəlib döşəməli aş yemə - mək olmaz. Bizim aş sevdiyimizi bilən Sahilə xalam döşəmli aşı önümüzə dö - şəyir. Bir də Azərbaycanı ziyarət etmək istəyənlərə iki tövsiyəm var: birincisi, aş yemə dən Azərbaycandan ayrılmasınlar, ikincisi isə, diğər dostlarımız inciməsin, amma aşı ya Ağdaşda, ya da Qəbələdə yesinlər.

Artıq rayonlara doğru yola çıxırıq. Şa-maxıdan keçərkən vətənin mənəvi gö - zətçiləri olan Acıdərənin simvolu halına gəlmiş şəhidimizə dualar göndəririk. İlk dayanacağımız Şamaxının Mədrəsə kən - dindəki Məqbulə xalamızın və Kamal əmi mi zin evi olur. Məqbulə xala "başım ağrıyırdı, gəlişini eşitdim başımın ağrısı keçdi" deyərək gülər üzüylə könül qapı-larını sonuna qədər üzümüzə açır. Həs - rə timizi dindirmədən yola çıxırıq və il-lərcə bizi bağ rna basan Zaqatalaya qo-vuşmaq üçün məsafələri qət edirik.

Zaqatalada və gözəl bir qəsəbəsi olan Əliabadda dostlarla göz yaşları içində həsrə timizi aradan qaldırmağa çalışırıq. Dostlarımız qonaqpərvərliyini göstərib bizi söhbət otağında başda oturtduqla-rında, sağımda və solumda böyük bir boşluq hiss etdim. Azərbaycan çinarla - rından Bənövşə xalam və Hürü xalam xəstə olduğu üçün yerləri boş qalmışdır. Allahdan şəfalar diləyib yerlərini doldur - maları duasıyla deyirik. Gedib də dön - mə mək var, gəlib də görməmək var. Azərbaycana gəlib görmə diyim Güleyfə xalama, Zenfira xalama, Gö zəl xalama və di gər çinarlara da Allahdan rəhmət di ə-yi rk.

Həyatda olmaları bizim üçün rəhmət olan xalalarımı ziyarət edib dualarına qərq oluruq. Onların bizimlə olması necə bir rəhmətdirsə, duaları da rəhmət olar, in şallah.

Əliabadın sayılıb seçilən insanların-dan olan Əliabadlı Musab Emin qardaşı-mızı ziyarət edirik. İnsanlar vardır ki, öz və tə nində can versə də, torpağa girər girməz unudulub gedər. Emin qardaşı-mız isə qısa ömrünə o qədər gözəlliklər sığ dırmış ki, vəfatıyla belə taxt qurduğu kö nüllərdə tə xə liyini qorumuşdur. Azər - baycan xalqı öz qə birlərinə yasinlər, fati-hə lər göndərmə dən Emin qardaşın qəb-rini ziyarət etmə ə riylə nə qədər vəfalı olduqlarını göstə rirlər.

Sayılı günlər tez bitərmiş. Bizim də Zaqataladakı günlərimiz tez bitir və gö - zü müzdə yaşlarla, dilimizdə axirətdə qo-vuşmaq duası ilə Ağdaşın yollarına düşü - rük. Afiqə xalamız bizi gülər üzüylə qar - şılayır və Ağdaşda Xansa və Büşra müəl-limə ə rin hazırladığı Ramazan proqramı-na qatılırıq. Balaca uşaqlardan ibarət olan ilahi qrupu ilahiləriylə könlümüzün pa - sını silir.

Ayrılarkən dostlara "vidalaşma vaxtı gəldi, gəlin vidalaşaq" desəm, "əsla vida-la şaq sözünü söyləmə, görüşənədək de" deyirlər. Bakı havalimanından ayrılar-kən, həl əlk Tamara xalam, Bənövşə xa-lam, Hürü xalam, Afiqə xalam, Sahilə xa-lam, Seda bacım və daha neçə-neçə Türk və Azəri dostlarım, deyirəm. Hələlik….

Türk və Azəri dostlarımızla görüşdüyü müzdə isə elə həsrətlə sarılmaqları vardı ki, məhəbbətlərini ta ürəyimizdə hiss edirdik. Bəlkə də öz qohumlarım belə bizi bu cür qarşılamır. Mehriban müəlli mənin dediyi kimi "doğmalar yad olur yadlar doğma".

Məhsəti ƏSGƏRLİ

İki dünya arasında

Dünya, yoxsa axirət? Axirət, yoxsa dünya?

Bu sual bir çox insanın ağlını qarışdırır. Əslində, cavabı çox asandır. Amma həqiqi yolu tapa bilməyənlər üçün çox çətindir. Dünya həyatı qüssə, kədər, sıxıntı və bəladan başqa bir şey deyildir. Bunların hamısını dərrakəli bir fikirlə düşündükdə doğrudur. Bunları sadəcə Allahın saleh əməl işləyən qulları anlaya bilər. Allahı unudan, Allaha səmimi qəlb ilə bağlı olmayanlar bunu anlaya bilməz. Hə q qp tən, axirət həyatı Uca Allahın bol-bol rəhmətini yağ drdığı və mömin qullarına bəxş etdiyi misilsiz nemətdir.

Dünyalıq və axirət barəsində Şeytan ilə Mələk durmadan yarış edirlər. Mələyin yarışdığı yolda sadəcə Allahın saleh əməl iş ləyən qulları qazanır və öncə Cənabı Haqq, sonra Mələk, sonra isə axirətini gözəlləşdirən Adəm oğlu. Şeytan isə yarışdığı yolda insan oğlunun gözünə bir anlıq tor çəkir və dünyalığı insanların gözlərinə gözəl göstərərək axirətlərini korlamaqlarına səbəb olur. Dünyalığa dalan insanlar sanki bu dünyada qalacaqlarmış kimi ya şayıb gedirlər. Elə düşünüb günlərini hədər edənlər necə də cahil insanlardır.

Təbii ki, yuxarıda sadalanan mənfi xüsuslar Allahın saleh əməl işləyən qullarına məxsus hallar deyildir. Onlar əbədi sevgini seçən comərd insanlardır.

Dünyalığa dalanlar içlərində bəzən böyük bir boşluq hiss edirlər və o boşluğu doldurmaq üçün çox çalışırlar və hətta bəzən doldurduqlarını sanırlar, amma bilmirlər ki, o boşluq sadəcə doğru yolu, yə ni Allaha gedən yolu tapmaqla dola bilər. Necə ki, boş bir stəkanı saf və təmiz suyun doldurduğu kimi. Eynilə Allahı tapan qəlblər də su kimi saf və çirklərdən tə mizlənmiş olmalıdır. Necə də gözəl sözdür "Qəlblər ancaq Allahı tapmaqla aram tapar". Cənabı Haqq nə göydə, nə də yerdədir. Allah onu tapmaq üçün yola çıxan insana, insanın öz addımından daha da yaxındır.

İnsan dünyaya gələrkən çılpaq gəlir, gedərkən isə sadəcə ağ kəfənlə gedir. Bunu qəbul etmək bəzən ağır gəlir. Amma qəbul etsək də, etməsək də insan oğlunun ömrü belə sona çatır. Əbədi sevgini, doğru yolu

tapanlar üçün qəbul edilməsi çətin olan kəfən parçası hər şeydən əziz gəlir. Çünki sonunda Allaha dönə cəklərini və səadətə qovuşacaqlarını bilirlər. Məsələn: Allah Rəsulu (s.ə.s.), səhabələri - Hz. Həmzə (r.a.), Hz. Əli (r.a.), Hz. Musab Bin Ümeyr (r.a.) və s. Bu insanlar əbədi dünyanı seçib səadətə qovuşanlardandır. Bu insanların adı çəkildiyində hörmət ilə anmaq və Allah rızası üçün səmimi bir qəlb ilə bir Fatihə, üç İxlasla anmaq çox ibrətamiz olardı. Çünki onlar buna layiqdirlər.

Onların igidliklərinə, qəhrəmanlıqlarına və Allaha duyduqları sevgilərinə görə Allah Təala bu ayəti-kəriməni göndərdi:

"Möminlər içərisində elələri də vardır ki, Allaha etdikləri əhdə sadiq olarlar. Onlardan kimisi (bu yolda) şəhid olmuş, kimisi də (şəhid olmasını) gözləyir. Onlar (verdikləri sözü) əsla dəyiş məzlər". *(Əhzab, 23)*

Əbədi dünyanı seçənlər sadəcə Allahın Rəsulu (s.ə.s.) və Allah yolunda şəhid olanlar deyil, indi də günümüzdə yaşayan övliyalar da vardır ki, onlar da Allah yolunda çalışanlardır. Bu insanlar örnək götürülmə li və hansı yolun bizlər üçün daha xeyirli olmasının açıq bir cavabdır.

"(Ey insanlar!) Bilin ki, dünya həyatı oyuncaq, bər-bəzək, bir-birinizin qarşısında öyünmək və mal dövləti, oğul-uşağı çoxaltmaqdan ibarətdir. Dünya həyatı aldanışdan (yalandan) başqa bir şey deyildir". *(Əl-Hədid, 20)*

Dünya həyatı, həqiqətən də, sadəcə bir aldanışdan ibarətdir. İnşallah ki, bizlər də bu dünyada gözəl işlər edərək Allah dərgahında gözəl mövqe qazanar və dünyaların ən gözəli olan əbədi dünyaya çata bilərik. Cənabı Haqq hər birimizə layiqli qul olmağı nəsib etsin. Amin!

Səma Bəşirli

Biz Sevdikmi?

Sevmək çox insanın dilində olan, lakin az insanın könlündə taxt quran kəlmə... Sevmək bir çox insanın doğrunu tapdığı üçün həyatının dönüş nöqtəsini yaşadan kəlmə, kiminin də həyatında yanlışlarla dolu bir səhifə... Bizim sevda dediyimiz əsl sevdanın həqiqətinə nə zamansa yaxınlaşa biləcəkmi? Sevdik dedik, amma necə? Yalanlarmı bəzəyi oldu sevdalarımızın? Bir də ad qoyduq, Allah rızası üçün sevirik. Hansı sevdadaydı Allah rızası? Hansı yalanlardan uzaqdaydı?

Biz sevdik, lakin Allah üçünmü?

Birinin yaxşılığını digərinin qayğımıza qalmasını, bizə dəyər verməsini sevdik. O sevir deyə sevdik, dəyər verir deyə dəyər verdik. Əslində, biz nəyi, kimi sevmişdik, görəsən?

Həqiqi mənada Allah üçündürsə sevgilər nəyə görə bir addım sonrasında nifrət edə bilirik? O bizim hər şeyimizi nankorluğumuzu bağışlayarkən və yenə də bizi sevərkən bizsə onun xətrinə heçmi sevə bilmirik? Ya sualların içindəyik cavabımız yoxdur, ya da cavabların içində sual axtarırıq. Uzaqlaşırıq çox uzaqlaşırıq. Biz heç zaman Veysəl Qarani kimi sevə Rabiyyətul Ədəviyyə kimi yana bilməyəcəyikmi!? Biz sevdik deyirik, onlar da sevdi. Həqiqət o qədər açıqdır ki, biz sevmədik ara-sıra gözümüzün yaşarıb ürəyimizin yanmasına sevda dedik. Onlarınsa gözlərinin yaşı qurumuş ürəkləri isə çoxdan yanıb kül olmuşdu. Necə hüzünlüdür ki, Sevgi ilə yaratılmışkən Sevdanın nə olduğunu bilmədən bu dünyadan getmək. Necə həzindir ki, heç sevməmişkən sevgisizliyə sevda adını verərək bir ömrü bitirmək...

Safiyə ƏLİYEVA

FƏDAKARLIQ

"Kim bir qardaşının sıxıntısını həll etsə, Allah o kimsənin qiyamətdə bir sıxıntısını həll edər". *(Buxari, Məzalim 3)*

Bir mömin din qardaşıyla maraqlanmalı, onları düşünməli, dərdləriylə dərdlənməlidir. Necə ki, Ş. S. Şirazi buyurur:

Könlünün dərdli olmasını istəmirsənsə,
Dərdli könülləri dərdlərindən qurtar.

Çalışaq din qardaşlarımızın problemlə rində onlara kömək olaq, dərdlərinə çarə tapaq. Onlar ağlayarkən ağlamağa, kə dərlənərkən kədərlənməyə, gülərkən gülməyə çalışaq. Deyirlər ki, sevən sevdiyinə tabe olarmış. Biz də Peyğəmbə rimiz (s.ə.s.)i sevdiyimiz üçün ona tabe olaq və Onun getdiyi yolu getməyə çalışaq.

Bir gün bir nəfər Hz. Peyğəmbərin yanına gələrək:

"- Ya Rəsulallah, çox acam, mənə yardım edərsiniz?" dedi.

Hz. Peyğəmbərin evində yemək üçün heç nə yox idi. Bunun üçün Rəsulullah (s.ə.s.) əshabından soruşdu:

"- Kim bu qardaşınızı axşam yemə yinə qonaq edər?

Səhabələrdən biri:

"- Mən qonaq edərəm, ya Rəsulallah",- deyərək o adamı evinə apardı. Lakin onun evində də ancaq özlərinə kifayət edəcək qədər yemək vardı. Xanı mna dedi ki, bu qədər yemək hamımıza çatmaz. Qonaq süfrəyə oturduqda çırağı söndür. Biz də süfrə başında özümüzü yemək yeyirmiş kimi göstərək. Qoy qonağımız doyunca yesin.

Süfrə başına oturdular və qonaq doyunca yedi, amma ev sahibləri o gecəni ac yatdılar.

Ertəsi gün Peyğəmbər (s.ə.s.) o səhabə ilə qarşılaşdığı an təbəssüm edərək belə buyurdu: "*-Allah Təala bu gecə qonağınıza etdiyiniz yaxşılıqdan çox razı qaldı*". (Buxari, Mənakibil Ənsar, 10)

Səhabələrin üstün fədakarlıq nümunə lərindən biri isə hələ uşaq yaşda olan və yaxud əksinə, yaşlı olduqlarına gö rə zəif olan səhabələrin belə Allaha olan sevgilərindən, imanlarının şövqündən və Rəsulullaha olan sədaqətlərindən Peyğəmbərimiz (s.ə.s.)lə birlikdə döyüşə getmək istəmələridir.

Həm yaşlı, həm də ayağı şikəst olan

Amr ibn Cəmuh da iman coşğusu və Allahın rizasını qazanmaq arzusu ilə Peyğəmbərimiz (s.ə.s.)dən Uhud döyüşündə iştirak etmək üçün icazə istəmiş və bu müharibədə şəhid olmuşdur. Rəsullah vəfat edənə qədər onunla, daha sonra Hz. Əbu Bəkir və Hz. Ömər vəfat edənə qədər də onlarla birlikdə vuruşan Əbu Talxa isə yaşlı olmasına baxmayaraq müsəlmanlarla birlikdə bir daha döyüşə getmək üçün təkid etmiş və bu döyüşdə dənizdə olarkən şəhid olmuşdur.

Etdiyi fədakarlığın qarşılığında Allahın razılığını və "gözəllik və sevinc" duyacağı axirət nemətlərini qazanacağını bilən bir mömin üçün fəda etdiklərinin heç bir əhəmiyyəti qalmır. Müvəqqəti, qısa və əskikliklərlə dolu həyatda insanın ən sevdiyi var-dövlətinin belə, Allahın məmnuniyyətinin və bunun qarşılığında verəcəyi cənnət həyatının yanında heç bir dəyəri və gözəlliyi yoxdur. Buna iman edən möminlər etdikləri fədakarlıq nə qədər böyük olursa olsun nə bir təqdir gözləyirlər, nə də digər insanları minnət altında qoyurlar. Bütün bunlarla bərabər Allah, Öz razılığı üçün fədakarlıq edənlərə dünyada da bolluq və bərəkət vəd edir, verdiyindən də çoxunu o adama bağışlayır.

Məhəbbətin ən bariz əlaməti fədakarlıqdır. Bir sevginin böyüklüyü sevilən uğrunda edilən fədakarlıqla ölçülər. O halda Allaha və dininə sevgi bəsləyən möminlərin Allah yolunda infaq edib bəzi məşəqqətlərə könüllü olaraq dözmələri lazımdır.

Fədakarlığın malla, canla və s. kimi şeylərdən əlavə olaraq imanla da olabiləcəyini unutmamalıyıq. Bunun üçün də imanımızın nə qədər olduğundan əmin olmalıyıq. İmanla fədakarlıq dedikdə Allahın fərz buyurduğu şeyləri yerinə yetirməklə yanaşı, Peyğəmbər (s.ə.s.)in sünnətini yaşamalıyıq. Onun yolu ilə getməklə də fədakarlıq etmiş olarıq.

Bir yoldan ən gözəl keçən insan, özündən sonra gələnlər üçün yoldakı maneələri aradan qaldıran insandır!

Biz isə tələbəyik. Elə bilməyin ki, tələbələr, həkimlər, müəllimlər və s. kimi işlərlə məşğul olanlar fədakarlıq edə bilməz. Xeyr!

Əlbəttə ki, hamımızın öz çevrəmizə görə fədakarlıq edə biləcəyi bir şey olmalıdır:

Tələbələr öyrənərək, həkimlər həyat qurtararaq, müəllimlər elm öyrədərək fədakarlıq etmiş olar.

Fədakarlıq əridirsə nəfsi,
Fədakarlıq et sən bütün əsri.
Fədakarlıqla keçir bütün illəri
Sən ey nəfsi daim insan əhli.

Nəfsi yenmək üçün sən ey insan!
Fədakarlıq et hər dəqiqə, hər an.
Fədakarlıq olsun sənin dayağın,
Düşün hər zaman bu gün, sabahın.

Allah Təala yalnız və yalnız Onun rizasını qazanmaq və Peyğəmbər (s.ə.s.)ə daha yaxın olmaq üçün fədakar bir qul olmağımızı nəsib etsin! Amin!

Məhəbbətin ən bariz əlaməti fədakarlıqdır. Bir sevginin böyüklüyü sevilən uğrunda edilən fədakarlıqla ölçülər. O halda Allaha və dininə sevgi bəsləyən möminlərin Allah yolunda infaq edib bəzi məşəqqətlərə könüllü olaraq dözmələri lazımdır.

GÜNƏŞ ULDUZ KİMİ

Günəş sisteminə məlum 8 planet, 153-ə yaxın planet peykləri, asteroidlər və kometlər daxildir. Günəş bu sistemin mərkəzi cismidir. Onun kütləsi 8 planetin birlikdə kütləsindən 750 dəfə böyükdür. Bu böyük kütlə kifayət qədər böyük qravitasiya cazibə qüvvəsinin yaranmasına səbəb olur və nəticədə Günəş sistemə daxil olan cismləri öz ətrafında dövr etməyə məcbur edə bilir. Nəticədə Günəş sistemi Günəşin yaratdığı böyük qravitasiya cazibə qüvvəsi hesabına dağılmır.

Maraqlıdır, Günəş belə böyük cazibə qüvvəsinə malikdirsə, onda planetlər nə üçün Günəşin səthinə düşmürlər?

Bunun əsas səbəbi planetlərin hər birinin Günəş ətrafında müəyyən orbitdə böyük surətlə hərəkət etməsidir. Fizika qanunlarından bildiyimiz kimi hər hansı bir cismin mərkəzi cism ətrafında dövr etməsi zamanı mərkəzdən qaçma qüvvəsi yaranır. Günəşin qravitasiya cazibə qüvvəsi planeti daima cəzb edib öz üzərinə salmağa çalışır. Planetin Günəş ətrafında fırlanma hərəkətindən yaranan mərkəzdən qaçma qüvvəsi isə, onu daima Günəşdən uzaqlaşdırmağa çalışır. Bu iki qüvvə bir-birini balanslaşdırdığı halda bu hərəkət davamlı olur. Əgər hansısa səbəbdən bu qüvvələrin balansı pozularsa, onda bütün sistemin hərəkətində kataklizmlər baş verə bilər. Bunun baş verməməsi üçün bir Quran ayəsində buyrulduğu kimi (Fatir 35/41) Allah bütün sistemi bir yerdə tutub saxlayır.

Fatir surəsi, ayə 41.

"Həqiqətən, Allah göyləri və yeri zaval tapmasınlar (öz məhvərindən çıxmasınlar) deyə, tutub saxlayır. Əgər öz məhvərindən çıxsalar, Ondan başqa onları heç kəs tutub saxlaya bilməz. Doğrudan da, (Allah) həlimdir, bağışlayandır! (Bəndələrinə cəza verməkdə tələsməz, tövbə edənləri əfv edər)".

Bu qədər böyük həqiqətləri görüb, anlayıb, dərk etdikdən sonra bəlkə inanmayanlar inama gələlər. Şeytana uyanlar bu həqiqətləri eşitməz, görməz və anlamazlar.

Maraqlıdır, bəs bu qədər enerjini Günəş haradan alır?

Uzun sürən elmi araşdırmalardan məlum olmuşdur ki, bu enerjinin əsas mənbəyi Günəşin mərkəzi oblastlarında baş verən istilik nüvə reaksiyalarıdır. Həmin oblastda hərarət təxminən 14.000.000 dərəcəyə çatır. Yerdə insan kiçik atom aktorları dü zədir. Məlum olduğu kimi, bunlarda bəzən fəlakətlər baş verir. Çernobıl atom elektrik stansiyasında 1986-cı ildə baş verən qəzanı xatırlatmaq kifayətdir. Ancaq Allah Təalanın idarə etdiyi Günəşdə yerləşən nəhəng təbii nüvə reaktorunda 4,5 milyard il ərzində heç bir fəlakət baş verməmişdir.

Hesablamalar göstərir ki, Günəşin bu şiddətlə enerji saçması üçün hər saniyədə 564 milyon ton hidrogen 560 milyon ton heliuma çevrilməlidir. 4 milyon ton qalıq kütlə isə enerjiyə çevrilərək bütün istiqamətlərdə ətraf kosmik fəzaya yayılmalıdır. Buradan belə çıxır ki, Günəş hər saniyədə 4 milyon kütlə itirir. Bu kimyəvi reaksiya haqqında cildlərlə kitab yazmaq olar.

Qurani Kərim, Rəhman surəsi, ayə 4, 7.

"Günəş və Ay müəyyən bir hesabla yaradılmışdır. Göyü O ucaltdı, mizanı O qoydu!"

Göründüyü kimi Günəşdə baş verən istilik nüvə reaksiyası təsadüfü proseslərin nəticəsində baş vermir. Onun bir hesabı və bir idarə edəni vardır. Yuxarıdakı Quran ayəsində buyrulduğu kimi "Günəş müəyyən hesabla yaradılmışdır". Məlumdur ki, Allah bütün işləri Öz elmi ilə yoluna qoyar.



Aytəkin ZEYNALZADƏ

Mirvarili sadə boyunbağı

Şəkil 1
İstifadə olunan ləvazimatlar:
Qayçı, iynə, ip, (ipək ip olsa daha yaxşı olar), mirvari və orta böyüklükdə muncuq (rənglər zövqə görə)

Şəkil 2
İpə 10 ədəd qara muncuq keçiririk.

Şəkil 3
Qara muncuqların ardından 3 ədəd mirvari keçiririk.

Şəkil 4
Şəkildə göründüyü kimi iynəni ipə ilk keçirdiyimiz mirvaridən tərs istiqamətdə keçiririk.

Şəkil 5
Mirvarilər üçbucaq şəklində alınır.

Şəkil 6
İpə yenə 10 ədəd qara muncuq keçiririk.

Şəkil 7
Eyni şəkildə 3 ədəd mirvari daha keçiririk.

Şəkil 8
Öncəki mərhələləri təkrar edərək istədiyimiz uzunluqda boyunbağı hazırlayırıq. Ən sonda ipi düyünləyirik, ya da bağlama aparatı ilə bağlayırıq. Boyunbağımız hazırdır.

Vüqarə MƏMMƏDOVA

Diqqət! Qlaukoma!

Bəzi göz xəstəlikləri özünü az büruzə verərək inkişaf etsələr də, nəticədə korluğa gətirib çıxarır. Onlardan biri də qlaukomadır - gözdaxili təzyiqin artması ilə müşayiət olunan göz xəstəliyi.

Gözün normal fəaliyyəti üçün gözdaxili mayenin xüsusi əhəmiyyəti var və həmin maye də dayanmadan yeniləşir. Onun artığı isə gözün xüsusi drenaj sistemi vasitəsilə xaric olaraq qan-damar sisteminə ötürülür. Bu incə mexanizm o qədər dəqiq işləyir ki, gözdaxili təzyiq sabit olaraq qalır. Xüsusi göz tonometri ilə ölçülən həmin göstərici, müxtəlif insanlarda fərqlənsə də, onun orta göstəricisi - civə sütununun 16-25 mm arasında olur.

Gözdaxili mayenin hasilatı və gözdən xaric edilməsi arasında tarazlıq pozulduqda, həmin mayenin həcmi çoxalır və buna müvafiq olaraq gözdaxili təzyiq artır. Bunun nəticəsində isə göz toxumalarının işemiyası (qanla təminatının pozulması) və hipoksiyası (oksigen çatmazlığı), ardınca isə görmə sinirinin tellərini sıxılması, distrofiyası və tədricən məhv olması baş verir. Qlaukoma zamanı görmə sinirinin məhvi geri dönməz xarakter daşıyır və korluğa gətirib çıxarır!

Xəstəliyin gedişatının daha kəskin variantı – göz təzyiqinin kəskin artması və hər an gözlənilə bilən şiddətli tutmanın baş verməsidir. Adətən bu hadisə əsəb gərginliyi, həddindən artıq yorulma, uzun müddət qaranlıqda və ya zəyif işıqlandırılmış otaqda qalma, dərman preparatlarından istifadə edərək göz bəbəyini genəltmə, başı əyilmiş vəziyyət -

də iş görmə və ya böyük həcmdə maye qəbul etmədən sonra baş verir. Bəzən isə tutmanın səbəbi məlum olmur.

Qlaukoma tutması zamanı xəstə şiddətli göz və baş ağrısı, dumanlı görmə və ya görmə qabiliyyətinin kəskin zəyiflə məi, işığa baxarkən rənbərəng dairələrin görünməsini hiss edir. Bəzən ürək bulanma, qusma, ümumi zəyiflik, ürək və qarın nahiyyəsində ağrı qeyd olunur. Qlaukoma tutmasını çox vaxt miqren, ürək tutması, qarın ağrısı və hətta adi qriplə də səhv salırlar. Nəticədə isə çox qiymətli vaxt itirilir! İlk saatlar ərzində medikamentoz (dərman preparatları vasitəsilə) və ya cərrahi yolla gözdaxili təzyiq azaldılmazsa, xəstə çox ağır fəsadlarla və hətta ömürlük korluqla üzləşə bilər. Qlaukoma tutması təxirəsalınmaz hal olduğu üçün təcili tibbi yardım tələb edir.

Qlaukoma yaşı 40-dan artıq olan şəxslər arasında daha çox qeyd edilsə də, bir sıra hallarda gənclər və hətta körpələrdə də bu xəstəliyə rast gəlinir. Anadangəlmə qlaukoma hər 10-20 min yenidoğulmuşlardan birində qeyd olunur və onun səbəbləri kimi də hamiləlik vaxtı baş vermiş yoluxucu xəstəliklər (məxmərək, parotit, poliomiyelit, yatalaq, sifilis və s.), qalxanvari vəz xəstəlikləri, hamiləlik zamanı mexaniki travmalar, zəhərlənmələr, alkoqol qəbulu, ionlaş dırıa radiasiyanın təsiri, doğuş zamanı zədələnmələr və s. göstərilir.

Qlaukomaya meyllilik amilləri

- irsiyyət. Yaxın qohumlarınızda bu xəstəlik qeyd olunubsa – sayıq olun, mütəmadi olaraq oftalmoloqun (yəni, göz həkiminin) müayinəsindən keçin!
- ahıl yaş.
- şəkərli diabet. Bu xəstəliyin gözə fəsad verməsi məlumdur – həkim-endokrinoloqun təyin etdiyi dərmanları vaxtında qəbul edin və pəhrizə riayət edin, qanda şəkər səviyyəsini nəzarətdə saxlayın!
- yüksək arterial təzyiq;
- ateroskleroz;
- boyun fəqərələrinin osteoxondrozu;
- qalxanvari vəzi xəstəlikləri;
- sinir sistemi xəstəlikləri;
- miopiya (uzağı görməmə xəstəliyi);
- gözün müxtəlif iltihabi və distrofik xəstəlikləri;
- katarakta;
- gözün zədələnməsi, yanması, şişləri;
- kəllə-beyin travması;
- kortikosteroid (hormonal) preparatların uzun müddət qəbulu;
- müxtəlif intoksikasiyalar (zəhərlənmələr) – xüsusən də zəhərli maddənin az miqdarda olsa da uzun müddətli təsiri.

Qlaukoma tutması zamanı xəstə şiddətli göz və baş ağrısı, dumanlı görmə və ya görmə qabiliyyətinin kəskin zəyiflə məi, işığa baxarkən rənbərəng dairələrin görünməsini hiss edir. Bəzən ürək bulanma, qusma, ümumi zəyiflik, ürək və qarın nahiyyəsində ağrı qeyd olunur.

Yuxarıda sadalanan risk amillərindən hər hansı qeyd olunarsa, həmin şəxs mütəmadi olaraq hər il göz həkiminin müayinəsindən keçməlidir. Ümumiyyətlə, 40 yaşından sonra hətta bu amillər mövcud olmasa belə, illik müayinədən keçməyiniz və göz təzyiqinizi ölçdürməyiniz məsləhət görülür.

Kəmalə HÜSEYNOVA

QOZ

Qoz dünyanın bir çox regionlarında həmçinin Azərbaycanda da yetişdirilir. Qoz daha çox Naxçıvan, Şəki - Zaqatala, Quba - Qusar və Azərbaycanın cənub rayonlarında yayılmışdır. Azərbaycanda keyfiyyətinə görə Ordubad qozu xüsusi olaraq qiymətləndirilir. Qoz Azərbaycan mətbəxinin ənənəvi bir məhsuludur və qoz bir çox yeməklərdə və şirniyyatlarda istifadə olunur.

Qoz ən faydalı qida məhsullarından biridir. Qozun həm ləpəsindən, həm ağacından, həm qabığından, həm də yarpağından istifadə etmək mümkündür. İnsan beyninin kiçik formasını xatırladan qoz vitamin, mineral, proteinlə zəngindir. Kalori dəyəri yüksək olan qozda sağlamlığımız üçün doymamış yağ var. Gündə 3-5 ədəd qoz yemək məsləhət görülür. Qoz qandakı xolesterolun səviyyəsini azaldır, ürək döyüntüsünü tənzimləyir. Onun tərkibindəki maddələr qalın bağırsaq, süd vəzi və prostat xərçəngi kimi xəstəliklərdən müdafiə edir, immuniteti gücləndirir, qan-damar sistemini rahatlaşdırır, ürək xəstəlikləri riskini azaldır. Tərkibindəki melatonin gecə çalışan və yuxu pozğunluğundan əziyyət çəkənlər üçün faydalıdır. Tərkibindəki "Omega 3" və "Omega 6" yağ asitləri sayəsində beyinin inkişafına müsbət təsir edir, bədənə enerji verir, zərərli maddələri orqanizmdən kənarlaşdırmağa kömək edir. Həzm etməyə faydalıdır. Mədə və bağırsaq ağrılarının azalmasında, təzə meyvəsindən hazırlanmış mürəbbədən diş əti xəstəliklərinin müalicəsində və vitamin çatışmazlığında istifadə edilir. Qozun ləpəsindən əlavə onun xüsusi yağı da olur ki, bu da bir çox xəstəliklərdə xeyirlidir. Bu yağ bağırsaqdakı qurdları tökür. Dəridə olan ləkələri aparır. Bunun üçün dərini yağla ovxalamaq kifayətdir.

Qozdan necə istifadə edilə bilər?

Qozun ləpəsini adi halda yemək mümkündür. Yarpağının qaynamasından əldə edilən suyu içmək mədəni qüvvətləndirir, boğaz iltihabının sağalmasına kömək edir.

Qozdan hətta sənayedə də istifadə edilir. Belə ki, bu ağacdan yüksək keyfiyyətli mebel və avadanlıqlar hazırlanır.

Qoz ləpəsi nə üçün insan beyninə bənzəyir?

Yaşıl bir qoz...Yaşıl qabıq-qərzək bizim baş dərimizə, qozun sərt qabığı kəllə sümüklərinə, iki ləpə isə üstündəki qırışlarıyla bizim beyin yarımkürələrinə bənzəyir. Bu bənzəyiş təsadüfi ola bilərmi, Əsla! Qoz ləpəsinin tərkibi gümüş ionları ilə zəngindir. Beynimiz isə yerinə yetirdiyi elektronik proseslərdən görə gümüş ionlarına ehtiyac duyan tək orqandır. Çox hikmətlidir, deyilmi? Allahın sonsuz şəfqəti burda da təcəlli etməkdə, sanki insanlara bunu bilmədən də qozun faydaları bildirilir.

"Qozlu Şahzadə" salatı

Lazım olan ərzaqlar :

Mal əti – 500 qr
Bişmiş yumurta – 4 ədəd
Duza qoyulmuş xiyar – 6 ədəd
Sarımsaq dilimi – 3 ədəd
Qoz ləpəsi – 200 qr
Mayonez - 200 qr

Salatın hazırlanması :

Əti bişirib lifləri boyunca bir-birindən ayırın. Sonra xiyarı və bişmiş yumurtanı iri gözlü sürtgəcdən keçirin. Sarımsağı əzib xırdalayın və xiyar ilə qarışdırın. Qoz ləpəsini xırdalayıb tavada bir – iki dəqiqə qızardın.

Bundan sonra salatı aşağıdakı ardıcıllıqla üst – üstə olmaqla qat – qat hazırlanır

Ət + mayonez, sarımsaq ilə qarışdırılmış xiyar + mayonez, bişirilib sürtgəcdən keçirilmiş yumurta + mayonez, xırdalanmış qoz ləpəsi

Bundan sonra salatı soyuducuda bir müddət saxlayıb süfrəyə verin.

Qoz pecenyesi

Tərkibi:

3 stəkan un
2 ədəd yumurta
200 qr. yağ
Yarım stəkan səkər tozu
¼ ç.q. soda
Vanil

İçlik :

1 qutu qatılaşdırılmış süd
100 qr. qoz

Hazırlanması:

Sadaladığımız ərzaqlardan xəmir yoğruruq. Xəmirdən xırda kündələr düzəldib xüsusi formaya yerləşdirib qazda bişiririk . Qatılaşdırılmış südə qoz əlavə edib qarışdırırıq. Yarım qozların içinə içlik qoyub birləşdiririk. 1 saat soyuducuda saxlayırıq.

Qoz pecenyesi üçün forma

Qoz saçların tökülməsinin də qarşısını ala bilər. Bunun üçün 10 ədəd qoz qabığını 1 litr suda 15 dəqiqə qaynadın və bu su ilə saçları 3 həftə müddətində yuyun. Saçlarınızın gücləndiyini və rənginin dəyişdiyini gözlərinizlə görəcəksiniz. Bundan əlavə onun qabığı və yarpaqlarından da istifadə edilir. Yaşıl üst qabığı əzilərək saç boyası kimi istifadə edilə bilər. Yarpaqları qaynadıb suyundan duş qəbul etmək dəri problemləri üçün faydalır.

SULTAN TACI

Lazım olan ərzaqlar:
1 litr süd
1 st. şəkər tozu
3 x. q. un
2 x. q. buğda nişastası
Yarım paket marqarin
20-25 ədəd cicibəbə (uşaq peçenyesi)
1 paket vanil
Üzəri üçün:
1 paket şokolad
Hazırlanması:
Əvvəlcə tavada marqarini əridirik, sonra 3 x. q. un əlavə edib qarışdırırıq. Sonra vam odda soyuq südü tökürük, bir tərəfdən də qarışdırırıq. Pürüsüz hala gələndə nişastanı, ardından da şəkər tozunu əlavə edib qarışdırmağa davam edirik. Qaynamağa başlayanda vanili və xırda doğranmış peçenyeləri tökürük.

Qarışdırdıqdan sonra ocaqdan alırıq. Qarışığı kek formasına töküb üzərini örtürük və 1 gün soyuducuda saxlayırıq. Ertəsi gün qarışığı düz bir boşqaba tərs çeviririk. Daha sonra şokoladı su hamamında əridirik. İstəsəniz kərə, yaxud marqarin yağı da əlavə edə bilərsiniz. Şirniyyatımızın üzərini şokolad ilə bəzədikdən sonra 1 saat da soyuducuda saxlayırıq. Budur şirniyyatımız hazırdır! Nuş olsun!

SANDIQ SALATI

Lazım olan ərzaqlar:
1 ədəd ağ çörək
300 qr. yağlı pendir
1 diş sarımsaq
Mayonez və ya xama
Diş çöpü
Salat üçün:
Zövqünüzcə olan hər hansı ərzağı götürə bilərsiz.
Bəzək üçün:
Rəngli tərəvəzlər
2-3 x/q qırmızı kürü və qara kürü
Nar
Göyərti
Hazırlanması:
Çörək ehtiyatla şəkildə gördüyünüz kimi kəsilib içi çıxarılır. İçindən çıxarılmış çörəyi xırda doğrayaraq suxari edib salata qatmaq olar. Sarımsaq əzilərək pendirə qatılıb çörəyə hərtərəfli çəkilir. Zövqünüzə uyğun ərzaqları xırda kub şəklində doğrayıb xama, duz, istiot vurub qarışdırın. Hazır salat çörəyin içinə doldurulur və bəzədilir. Nuş olsun!

Qat - qat xəmirə bükülmüş kotlet

Lazım olan ərzaqlar:
500 qr. qat-qat xəmir
1 kq. toyuğun döş əti
1-2 dilim çörək
Soğan və ya sarımsaq
1 ədəd yumurta
Bitki yağı
duz, istiot

Hazırlanması:
Hər hansı kotletdən də istifadə edə bilərsiniz.

Toyuğun döş ətini çörəklə birlikdə maşınnxırda gözündən keçiririk. Soğan və ya sarımsaq, duz, istiot əlavə edib qarışdırırıq. Kotlet formasına salıb yağda hər iki üzünü qızardırıq. İstədiyiniz formada və ölçüdə edə bilərsiniz. Qat-qat xəmiri şəkildə gördüyünüz kimi yayıb kəsirik. Kotleti ortasına qoyub hörük şəklində bükürük. Üzərinə yumurta çəkib listə yığıb sobada bişiririk. Qat-qat xəmirə bükülmüş kotletlərimiz hazırdır. Nuş olsun!

Bolqar bibərli ət piroqu

Ərzaqlar:
Kartof xəmiri üçün:
3-4 ədəd kartof
80 qram kərə yağı
0,5-0,75 stəkan un
bir çimdik duz

İç üçün:
500 qram mal əti
2 ədəd soğan
1 diş sarımsaq
2-3 ədəd bolqar bibəri
duz, istiot,
kərə yağı ilə bitki yağın qarışığı

Xəmir şirəsi hazırlamaq üçün:
3 x.q. xama
150 ml. süd
3 ədəd yumurta
2 x.q. tomat pastası

Hazırlanması:
Kartofu suda bişirib, püre hazırlayın. Üzəri nə kərə yağı əlavə edib yaxşıca qarışdırın. Sonra un əlavə edib yumşaq xəmir yoğurun. Bişirmək üçün forma qaba yağ sürtüb xəmiri yerləşdirin. Əlinizə forma qabında xəmirin içini dərin saxlamaqla, xəmirin kənarlarını qabın ətrafına bərkidin və 30 dəqiqə soyuducuya yerləşdirin. Bolqar bibərini təmizləyb nazik uzunsov doğrayın. Soğanı xırda-xırda doğrayıb 2-3 dəqiqə ərzində yağda qovurun. Sonra üzərinə bibəri əlavə edib 5-6 dəqiqə qarışdıraraq qızardın. Üzərinə duz, istiot səpin. Qızardılmış bibəri boşqaba yerləşdirin. Mal ətini ət maşınından keçirin, tavaya yağ töküb 10 dəqiqə qarışdıraraq qovurun. Üzərinə duz, istiot səpin. Sonra qızardılmış bibəri farşla qarışdırın. Hazırladığınız həmin bu kütləni xəmirin içinə yerləşdirin.

Xəmir şirəsini hazırlamaq üçün:
Boşqabda yumurtaları qırıb yaxşıca çalın. Üzərinə tomat pastası, xama, süd, duz, istiot əlavə edib yaxşıca qarışdırın, sonra xəmirin üzərinə gəzdirin. 180 dərəcə qızdırılmış sobada 30-35 dəqiqə ərzində bişirin. Nuş olsun!

qadın geyimləri

tuwa

HİCABLI QADIN GEYİMLƏRİNDƏ BOL ÇEŞİD VƏ İNANILMAZ UCUZLUQ

İrfan Abunəçilərinə Əlavə Endirimlər Nəzərdə Tutulur!

Ünvan:
Binə Ticarət Mərkəzi
Sıra 7A, korpus 3,
mağaza 28 (keçid)

Tel:
(+ 994 55) 208 72 55
(+ 994 12) 408 40 43

manto
tunik
kostyum
yupka
şalvar